

Milli azadlıqdan şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

25 aprel 2025-ci il, cümə

№ 069 (6897)

Qiyməti 60 qəpik


# İkitərəfli münasibətlərdə lider amili...



Bax səh. 2

# Çoxşaxəli əlaqələr...

## Birgə Bəyanat müsbət siyasi dialoqu gücləndirir

Bax səh. 3

## Qədim İpək Yolu sivilizasiyasının mərkəzində

Bütün dövrlərdə mədəni-humanitar sahədə əməkdaşlıq dövlətlər və xalqlar arasında münasibətlərin inkişafına, qarşılıqlı etimad mühitinin formalaşmasına güclü impuls verib. Bunu həmçinin hazırda strateji tərəfdaşlıq səviyyəsinə yüksələn Azərbaycan-Çin münasibətlərinin timsalında da aydın şəkildə izləmək mümkündür.

İki ölkə arasında siyasi diaoqun intensivləşməsi, ticarət döviyyəsinin artması ilə paralel şəkildə, humanitar-mədəni, xüsusilə də təhsil sahəsində əməkdaşlıq da genişlənir. Azərbaycan Prezidenti İlham Əliyev bugünlərdə Çinin Sinxua agentliyinə məxsusi müsahibəsində bundan məmnunluğunu ifadə edərək vurğulayıb: "Strateji tərəfdaşlığın qurulmasına dair Birgə Bəyannamədə iki ölkənin mövcud müqavilə-hüquqi bazası çərçivəsində təhsil sahəsində əməkdaşlığın sabit inkişafı bəyan edilib. Bununla yanaşı, biz dillərin öyrənilməsi və tədrisi sahəsində əməkdaşlığa xüsusi diqqət yetirmişik".

Azərbaycanla Çin arasında mədəni əlaqələrin çoxəsrlik tarixi var. Bunu şərtləndirən əsas amil isə hər iki ölkənin coğrafi yerləşməsi ilə bağlıdır. Qlobal Cənubu təmsil edən Azərbaycan və Çin qədim İpək Yolu sivilizasiyasının mərkəzində yer alırlar. Tarixdə "Qədim İpək Yolu" kimi qalan marşrut yalnız karvanların keçməsinə, ticarət yüklərinin daşınmasına xidmət etmirdi. Bu yol həm də onun üzərində yerləşən ölkələrin, xalqların mədəniyyətlərinin inteqrasiyasında mühüm rol oynayırdı. Ayrı-ayrı ölkələri təmsil edən tacirlər ayaq basdıqları yerlərə eyni zamanda öz xalqlarının mədəniyyətini daşıyırdılar.

Azərbaycan cəmiyyətində tarixən Çinə və onun mədəniyyətinə böyük maraq və rəğbət olub. Dahi Nizaminin yaradıcılığı bunun əyani təsdiqidir. Şair Çini sivil, yüksək mədəniyyətə malik ölkə kimi təqdim edib. Nizami çinli qadınların gözəlliyindən heyrətləndiyini gizlətməyib. Eyni zamanda, onun əsərlərində çinli bədii obrazlar mərdliyi, qorxmazlığı, cəsarəti ilə fərqlənirlər. Qeyd etmək yerinə düşər ki, Çin xalqı da dahi Azərbaycan şairinə, necə deyərlər, vəfa borcunu verib. Belə ki, 2012-ci il dekabrın 6-da Çinin paytaxtı Pekin şəhərində Çaoyan parkında...

Bax səh. 5




Bax səh. 4

## YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri davam edir

## Qərbi azərbaycanlıların çağırışı II Qaregini təlaşa salıb

Ermənilərin uzun illərdir ki, azərbaycanlılara qarşı soyqırımı və işğal siyasətində erməni kilsəsi hər zaman "aparıcı" rol oynayıb. Hələ ötən əsrin əvvəllərində başlanan bu planda erməni kilsəsi vahid mərkəz kimi çıxış edib. Erməni siyasi partiyaları, əsasən də "Daşnaksütyun" partiyası, erməni silahlı birləşmələrinin azərbaycanlılara qarşı basqınlarında aparıcı rol oynamağa başlayanda bütün proseslər kilsə tərəfindən idarə edilib, tədbirlər kilsələrdə keçirilib, kilsələr silah anbarı kimi istifadə olunub. Eləcə də kilsə xadimləri azərbaycanlılara qarşı hücumlarla bağlı çağırışlar ediblər.

**II Qaregin erməniləri revanşizmə çağırır**

Müasir dövrdə də Azərbaycan torpaqlarına qarşı işğalçılıq ideologiyasının əsas ilhamvericilərindən biri məhz erməni kilsəsi və onun başında dayanan katolikos II Qaregindir. Məlumdur ki, keçmiş...

Bax səh. 6

## Beynəlxalq aləmdəki yumşaq güc!

Hər bir ölkənin inkişafını təmin edən mühüm amillərdən biri milli maraqların və xalqa məxsus milli-mənəvi dəyərlərin qorunmasıdır. Mütərəqqi baxışları özündə ehtiva edən milli ideologiyanın təbliği bu prosesdə mühüm rol oynayır. Şübhəsiz ki, bütün bu proseslərdə bir sıra subyektlərlə yanaşı, vətəndaş cəmiyyəti institutları da mühüm rol oynayır.

Elmi ədəbiyyatda "vətəndaş cəmiyyəti" anlayışı öz xüsusi məzmununu müəyyən edib və müasir şərhində cəmiyyətin vəziyyətini, xarakterini, onun sosial-iqtisadi, siyasi və hüquqi təbiətini, inkişaf və yetkinlik səviyyəsini ifadə edir. Başqa sözlə, bu anlayış altında tarixi təcrübə ilə əldə edilmiş, müəyyən meyarlara cavab verən cəmiyyət başa düşülür. Bu, sosial cəmiyyətin inkişafında daha yüksək pillədir. Vətəndaş cəmiyyətinin mahiyyəti çoxtərəfli, müxtəlif mənalıdır və alimlər tərəfindən müxtəlif cür şərh edilir. Lakin bir şey də aydındır ki, vətəndaşlardan ibarət hər cəmiyyət vətəndaş cəmiyyəti deyil.

**Vətəndaş cəmiyyəti institutlarının legitim fəaliyyəti**

Mövzu barədə "Yeni Azərbaycan"a danışan Bakı Qeyri-Hökumət Təşkilatlarının Resurs və Təlim Mərkəzinin sədri Rauf Zeyni bildirib ki, bu gün vətəndaş cəmiyyəti beynəlxalq aləmdə yumşaq gücdür. Bütün dövlətlərdə iqtisadi inkişafla bərabər, həm də vətəndaş cəmiyyətinin güclü olması çox vacib bir faktordur. Ölkəmizdə dinamik siyasi sistemin struktur elementlərinin mütəmadi olaraq təkmilləşməsi vətəndaş cəmiyyəti institutlarının da legitim fəaliyyətinə əlverişli şərait yaradır. Onun sözlərinə görə, Azərbaycanın dinamik siyasi sistemə malik olması mülki şəxslərin könüllü birləşməsi nəticəsində yaranan, özünütənzimləmə və özünüidarə mexanizminə malik olan, qeyri-siyasi səciyyəsi ilə sivil şəxslər və münasibətlər sistemini ehtiva edən ictimai birlik kimi səciyyələndirilən vətəndaş cəmiyyətinin inkişafı üçün xüsusi önəm kəsb edən təməl strateji əsasdır: "Məhz bütün bunların fonunda vətəndaş cəmiyyəti özünün spesifik funksiyaları ilə cəmiyyətdə üzvi bütövlük, ahəngdarlıq və ümumi inkişafı təmin edən mexanizm kimi çıxış edir. Odur ki, məhz bu cür funksionallığın fonunda eyni təsisat daxilində...

Bax səh. 4

## ABŞ-ın Panama və Qrenlandiya marağı...



Bax səh. 6

## Makron Madaqaskarda...



Bax səh. 7

# Azərbaycanda enerji tədqiqat mərkəzi yaradılacaq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pekində CGTN (China Global Television Network) telekanalına müsahibə verib.**

**Müsahibənin icmalı növbəti sayımızda dərc ediləcək.**





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri aprelin 24-də başa çatıb.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Pekində “China Energy Engineering Corporation Limited” (“Energy China”) şirkətinin sədri Sonq Hailianq ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə “China Energy Engineering Corporation Limited” şirkətinin Azərbaycanda hazırda bir neçə layihə həyata keçirdiyi vurğulanıb. Qeyd edilib ki, şirkət Xəzər dənizində 1 qiqavatlıq külək enerjisi meqalayihəsinin podratçısıdır. “China Energy Engineering Corporation Limited” Füzuli rayonunda Günəş enerjisi və digər layihələrə isə investisiya yatırıb.

Sonq Hailianq rəhbərlik etdiyi şirkət tərəfindən Azərbaycanla birlikdə enerji dəhlizlərində əməkdaşlıqla bağlı təkliflərlə çıxış edib.

Dövlətimizin başçısı “China Energy Engineering Corporation Limited” şirkəti ilə əməkdaşlığın prioritetliyinə və strateji xarakterinə toxunub.

Söhbət zamanı uzunmüddətli birgə enerji planlaşdırma layihəsi ilə bağlı fikir mübadiləsi aparılıb. Qeyd edək ki, Azərbaycan Prezidentinin Çinə dövlət səfəri çərçivəsində bununla da bağlı sənəd imzalanıb.

Görüşdə Azərbaycanda gələcəkdə enerji tədqiqat mərkəzinin yaradılması ilə bağlı məsələlər müzakirə olunub. Şirkətin suyun idarəedilməsində böyük təcrübəsi nəzərə alınaraq, bu sahədə də əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, fəaliyyət dairəsinə bərpaolunan enerji layihələri ilə yanaşı, hidrogen enerjisi, enerjinin saxlanması və iri elektrik şəbəkələrinin tikintisi kimi istiqamətlər daxil olan şirkətin 147 ölkədə 256 filialı var. Hazırda 416 layihəsi icra olunan şirkət Çinin bərpaolunan enerji bazarının 50 faizinə nəzarət edir.

# İkitərəfli münasibətlərdə lider amili...

## Yüksək dostluq və işgüzar mühitin formalaşmasında və inkişafında liderlərin şəxsi münasibətləri mühüm rol oynayır

Sirr deyil ki, müasir beynəlxalq münasibətlər sistemində dövlətlərarası əlaqələrin güclənməsində lider amili ön plana çıxır. Xüsusilə, müsbət dinamika qazanan iqtisadi əlaqələrin yaxın dostluq, hətta strateji tərəfdaşlıq müstəvisinə qalxmasında lider amilinin rolu danılmazdır. Bu mənada, Azərbaycanın son illərdə beynəlxalq arenada qazandığı nüfuz, tutduğu önəmli yerdə dövlətin düzgün, praqmatik və çevik xarici siyasət yürütməsi ilə yanaşı Prezident İlham Əliyevin dünya liderləri ilə yüksək şəxsi münasibətləri olduqca mühüm yer tutur.  Prezident İlham Əliyevin Azərbaycana qısa zamanda Cənubi Qafqazın lideri statusunu qazandırması, Mərkəzi Asiya-Cənubi Qafqaz-Kiçik Asiya iqtisadi tranzitini ən real və effektiv ticari yol kimi təqdim etməsi, nəhayət, 2020-ci il Vətən müharibəsi və 2023-cü il antiterror tədbirləri nəticəsində yeni təhlükəsizlik arxitekturası qurması bütün dünya liderləri tərəfindən etiraf olunur - bu amil,  postmüharibə dövrünün reallıqlarında Azərbaycan liderinin ölkəsini yeni inkişaf mərhələsinə doğru apardığını sübuta yetirir.

İkitərəfli münasibətlərin, eyni zamanda strateji əlaqələrin qurulmasında liderlərin şəxsi münasibətlərinin yaxınlığından danışan zaman, Azərbaycan - Çin nümunəsinə toxunmamaq olmaz. İki dövlətin rəhbəri arasındakı səmimi münasibətlər dövlətlərarası əlaqələrin də yüksək keyfiyyətinə təsir göstərməkdədir.  Yeri gəlmişkən, Prezident İlham Əliyev aprelin 22-də Çin Xalq Respublikasına dövlət səfəri edib. Səfər çərçivəsində Pekində Azərbaycan Prezidentinin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə geniş tərkibdə görüşü olub.



Vurğulandığı kimi, iki ölkə arasında son illərdə siyasi dialoq, iqtisadi tərəfdaşlıq əlaqələri genişlənir - üst-üstə düşən maraqlar, uzlaşan mövqelər, yaxın təmaslar və xüsusilə də dövlətlərarası münasibətlərin formalaşmasında və inkişafında liderlərin şəxsi münasibətləri mühüm rol oynayıb. Ümumiyyətlə, iki ölkənin rəsmiləri arasında səfərlər intensivləşib, bütün sahələr üzrə danışıqlar və razılaşmalar dinamik xarakter alıb. Çinin Sədri Si Cinpin ikitərəfli münasibətlərin yüksək dinamika ilə inkişafında Azərbaycan Prezidentinin rolunu həmişə yüksək dəyərləndirib və cənab İlham Əliyevi Çinin böyük dostu adlandırıb. Beləliklə, dinamik və işgüzar xarakter daşıyan bu əlaqələr yeni mərhələdə yeni müstəviyə qədəm qoyur.

Eyni zamanda, dövlət başçılarının üzbəüz görüşləri, telefon danışıqları, məktub mübadiləsi, beynəlxalq tədbirlərdəki təmaslar əsasında formalaşmış sıx dialoqu, qarşılıqlı hörmət və etimadı Azərbaycan-Çin münasibətlərinin müxtəlif sahələrdə dərinləşməsində əvəzsiz rol oynayır. Dövlətimizin başçısı Sədr Si Cinpinin dəvəti ilə 2014-cü ildə Çində işgüzar, 2015-ci ildə isə dövlət səfərində olub. 2019-cu ildə isə Pekində keçirilən beynəlxalq əməkdaşlıq forumunda Cənubi Qafqazdan olan yeganə dövlət başçısı məhz Prezident İlham Əliyev olub. Çin lideri Si Cinpin özünün əsas qlobal təşəbbüsü üzrə Azərbaycana yüksək dəyər verməsi təkcə ölkəmizin əlverişli coğrafi mövqeyi, tranzit potensialı ilə deyil, həm də dövlətimizin başçısına bir lider kimi olan etimadı ilə bağlıdır. Prezident İlham Əliyev Çinin Sinxua agentliyinə məxsusi müsahibəsində bildirib ki, Çin dünyanın ən çox dinamik inkişaf edən ölkələrindən biridir. ÇXR-in Sədri Si Cinpinin qətiyyətli və müdrik rəhbərliyi altında Çinin bütün sahələrdə qazandığı nailiyyətlər və uğurlar onu dünyanın ən güclü və qabaqcıl ölkələri sırasına çıxardı, ölkənin beynəlxalq arenada mövqelərini daha da möhkəmləndirdi. Si Cinpinin başçılığı ilə Çin böyük uğurlar qazanıb. Çinin inkişafı təkcə Çin xalqının deyil, həm də dünyanın maraqlarına cavab verir: “Sədr Si Cinpinin dəvəti ilə 2014-cü ildə Çinə işgüzar səfər etdim, artıq 2015-ci ildə mənim ÇXR-ə dövlət səfərim oldu. 2019-cu ildə ÇXR Sədrinin dəvəti ilə Pekində keçirilən İkinci “Kəmər və yol” beynəlxalq əməkdaşlıq forumunda iştirak etdim. Sədr Si Cinpin ilə görüşlərimizi və səmərəli müzakirələrimizi böyük məmnuniyyətlə xatırlayıram. Şadam ki, qədim tarixə və xeyirxah ənənələrə əsaslanan Azərbaycan-Çin münasibətləri yüksələn xətlə inkişaf edir, bizim strateji tərəfdaşlığımız isə yeni müsbət məzmunla zənginləşir. Fəal dialoqumuz, şəxsi görüşlər, telefon danışıqları, məktubların mübadiləsi əsasında yaranan qarşılıqlı hörmət və etimad ikitərəfli münasibətlərin dərinləşməsində misilsiz rol oynayır”.

### Azərbaycan-Çin münasibətləri yüksələn xətlə inkişaf edir

### Zəngin ikitərəfli müqavilə-hüquqi baza...

Prezident İlham Əliyev qarşıdakı dövrdə Çinə səfərinə də toxunub. Bildirib ki, “əminliklə deyə bilərəm ki, ÇXR-ə bütün əvvəlki səfərlər zəngin proqrama malik idi və qarşılıqlı maraqlara əsaslanan Azərbaycan-Çin çoxtərəfli əməkdaşlığının genişləndirilməsinə yönəlmiş bir sıra mühüm ikitərəfli sənədlərin imzalanması ilə müşayiət olunurdu. İnanıram ki, qarşıdakı səfər də Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi işinə xidmət edəcək”.

Vurğulandığı kimi, qarşılıqlı səfərlər və həmin səfərlər çərçivəsində daha da zənginləşən ikitərəfli münasibətlər göz oxşamaqdadır. Dövlət başçısının bundan öncəki səfərlərinə baxdıqda mühüm sənədlərin imzalanmasının şahidi oluruq. 2015-ci ilin dekabrında dövlət başçısının Çinə rəsmi dövlət səfəri çərçivəsində 10 sənəd imzalanıb. İki dövlətin başçıları arasında imzalanan ən əsas sənədlərdən biri isə ötən il iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə Toplantısı çərçivəsində “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə”  sayılır. Aprelin 22-dən başlayan dövlət səfəri çərçivəsində isə iki dövlət başçısı “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat”ı imzalayıb. Eyni zamanda, səfər çərçivəsində 20 sənəd, o cümlədən energetika sahəsində əməkdaşlıqla bağlı sənədlər imzalanıb.

***S.İSMAYILZADƏ***

# Çoxşaxəli əlaqələr...

## Birgə Bəyanat müsbət siyasi dialoqu gücləndirir

Azərbaycan ilə Çin arasında çoxşaxəli əlaqələr həyatımızın demək olar ki, əksər sahələrini əhatə edir. Vətəndaş cəmiyyəti institutları, mədəniyyət və incəsənət, təhsil, paralel olaraq hökumət və parlament nümayəndələrinin, siyasi təşkilatların nümayəndələrinin qarşılıqlı səfərləri siyasi-ictimai dialoqun inkişafına mühüm töhfələr qazandırıb. Qeyd edək ki, bu amil ötən ilin iyulunda bağlanan "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanamə"də öz əksini tapmışdı. Bu il aprelin 23-də Pekində imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" isə münasibətləri yeni bir müstəviyə daşıdı, tərəfdaşlığa yeni mahiyyət qazandırdı - artıq Çin ilə Azərbaycan hərtərəfli strateji tərəfdaş olaraq yeni bir platformada çıxış etməyə start verir.

### Vahid Çin dəstəklənir...

Bu, sözügedən Birgə Bəyanatın həm giriş hissəsində, həm də maddələrində açıq şəkildə ifadə edilir. Bildirilir ki, hər iki dövlət başçısı diplomatik münasibətlərin qurulmasından ötən 33 il ərzində Azərbaycan-Çin əlaqələrinin inkişafındakı nailiyyətləri yüksək qiymətləndirərək səmimi və dostluq mühitində danışıqlar apardılar və hər iki ölkənin bir-birini prioritet təşkil edən, etibarlı və qarşılıqlı faydalı strateji tərəfdaş kimi nəzərdən keçirdiyini təsdiq edərək, qarşılıqlı siyasi etimadı daim möhkəmləndirməyə, qarşılıqlı dəstəyi gücləndirməyə, hər iki ölkənin xalqlarının mənafeyi naminə hərtərəfli əməkdaşlığı inkişaf etdirməyə hazır olduqlarını ifadə edərək, hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması barədə yekdilliklə qərar qəbul ediblər. Bəyanatın ilk maddəsində deyilir ki, tərəflər xalqlarının seçdiyi və milli şərtlərə uyğun olan inkişaf yolunu seçməkdə bir-birini möhkəm dəstəkləyir, hər iki ölkənin təməl maraqlarının, suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün qorunmasında bir-birinə qətiyyətli dəstək verirlər. Azərbaycan tərəfi dünyada yalnız vahid bir Çinin mövcudluğunu, Tayvanın Çin ərazisinin ayrılmaz tərkib hissəsi olduğunu, Çin Xalq Respublikası hökumətinin bütün Çini təmsil edən yeganə qanuni hökumət olduğunu tanıyır, "Tayvanın müstəqilliyi"nin istənilən formasına qarşı qətiyyətlə çıxır və ölkənin yenidən birləşməsinin həyata keçirilməsində Çin hökumətini dəstəkləyir. Çin Azərbaycan tərəfinin təklif etdiyi sülh gündəliyini qətiyyətlə dəstəkləyir və qarşıdurmaya yönəlmiş geosiyasi oyunları qeyri-məhsuldar hesab edir.

### Siyasi-ictimai əlaqələr möhkəmlənir...

Paralel olaraq iki ölkənin aparıcı siyasi gücü sayılan iqtidar partiyaları arasında çoxşaxəli əlaqələr mühüm inkişaf tempinə malikdir. Qarşılıqlı səfərlər, təşkil olunan beynəlxalq səviyyəli partiyalararası konfrans və tədbirlər, partiyaların ayrı-ayrı strukturlarının əlaqələndirilməsi yönündə atılan addımlar müsbət nəticələr verir. Xüsusilə, son bir neçə ildə bu əlaqələrin daha da gücləndirilməsi diqqəti cəlb edir. Qeyd olunmalıdır ki, ötən il YAP və ÇKP arasında əməkdaşlıq münasibətlərinin qurulmasının 25 ili tamam olub. Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Avrasiya Departamentinin rəhbərliyinin 1999-cu il dekabrın 20-21-də Yeni Azərbaycan Partiyasının ilk qurultayında iştirak etmək üçün ölkəmizə səfəri ilə əsası qoyulan partiyalararası əməkdaşlıq əlaqələri ən güclü və intensiv formada davam etdirilir. Yüksək səviyyəli əlaqələr fonunda hakim partiyalar tərəfindən qarşılıqlı səfərlərin təşkil olunması və təcrübə mübadilələrinin aparılması münasibətlərin gələcək inkişafı baxımından böyük önəm daşıyır. Xatırladaq ki, hər iki ölkənin iqtidar partiyasının rəsmi şəxsləri mütəmadi olaraq qarşılıqlı səfərlər edir, partiyalararası münasibətlərin inkişafını, inteqrasiyanı daha da gücləndirirlər. Yeri gəlmişkən, bu il aprelin 2-də Bakıda Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə "Azərbaycan-Çin strateji tərəfdaşlığı: Qlobal Cənubda konsolidasiya və əməkdaşlığın təşviqi" mövzusunda konfrans keçirilib. Tədbirdə Çin Kommunist Partiyası (ÇKP) Mərkəzi Komitəsinin üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lü Tzyançaonun rəhbərliyi ilə nümayəndə heyəti iştirak edib. 2024-cü ilin noyabr ayında isə YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri zamanı Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında memorandum imzalanıb. Bu sənəd qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlığın siyasi və hüquqi əsaslarını möhkəmləndirərək partiyalar arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsini təmin edib.

Parlamentlərarası münasibətlərə gəldikdə isə, hər iki ölkənin qanunverici orqanında parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. Vaxtaşırı edilən səfərlər, keçirilən görüşlər bu əlaqələrin daha da inkişaf etməsinə rəvac verir. Bir neçə gün öncə Çinin Sinxua agentliyinə məxsusi müsahibəsində Prezident İlham Əliyev bildirmişdi ki, ölkələrimiz arasında qarşılıqlı maraq doğuran bütün sahələrdə əməkdaşlığın inkişafına xüsusi əhəmiyyət veririk və ikitərəfli münasibətlərin dərinləşməsini Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən biri kimi qiymətləndiririk: "Bu gün əminliklə demək olar ki, münasibətlərimiz çox müsbət dinamikaya malikdir. 2024-cü ildə hökumət və parlamentin yüksək vəzifəli üzvləri, nazirliklərin və idarələrin, Baş Prokurorluğun rəhbərləri, həmçinin Prezident Administrasiyasının və Yeni Azərbaycan Partiyasının mərkəzi aparatının rəsmi nümayəndələri Çində səfərdə olublar".

İmzalanan Birgə Bəyanatda da göstərilir ki, tərəflər dövlət başçılarının diplomatiyasını və ən yüksək səviyyədəki mühüm razılaşmaları rəhbər tutacaqlarını, ikitərəfli münasibətlərin davamlı və uzunmüddətli inkişafını təşviq edəcəklərini bəyan etdilər. Eyni zamanda, hər iki dövlət Çin Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında siyasi dialoqun möhkəmləndirilməsini dəstəkləyirlər. Hər iki tərəf praktiki əməkdaşlığı irəlilətmək üçün müntəzəm mexanizmlər çərçivəsində hökumətlər arasında əlaqələrin gücləndirilməsinə hazır olduqlarını təsdiqlədilər. Tərəflər beynəlxalq və regional təşkilatlarda fəaliyyətin əlaqələndirilməsi də daxil olmaqla, qanunverici orqanlar xətti üzrə təmasları və mübadilələri dəstəkləyir, Xarici İşlər nazirlikləri arasında müntəzəm məsləhətləşmələr keçirmək əzmindədirlər. Paralel olaraq qarşılıqlı səfərlər, informasiya və təcrübə mübadiləsi vasitəsilə media sahəsində əməkdaşlığın genişləndirilməsini dəstəkləyir.



### Çin Azərbaycanın yaşıl gündəliyini dəstəkləyir...

Özünün gələcək inkişaf strategiyası çərçivəsində yaşıl konsepsiya formalaşdıran Azərbaycan müasir prioritetlərini, eyni zamanda gələcək hədəflərini bu amillə yaxından əlaqələndirir. "Yaşıl enerji" və "yaşıl dünya" prioritetlərini açıqlayan Azərbaycan dünyanın sağlam gələcəyi uğrunda əsaslı təşəbbüslər ilə yadda qalmaq üçün səylərini ortaya qoymaqdadır. Dövlətimiz illərdir ki, önə çəkdiyi, təşviqini apardığı "Yaşıl dünya" şüarını ümumi inkişaf prosesinin ən ümdə ştrixləri ilə uzlaşdırır - bu addım isə birmənalı şəkildə dəstəklənir. Xüsusilə Çin kimi dünya nəhənginin Azərbaycanın yaşıl hədəflərinə dəstək verməsi olduqca vacib şərtdir - strateji tərəfdaşlığın qurulması ilə bağlı imzalanan Bəyannamədə bu məqama diqqət ayrılır: Çin tərəfi Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (UNFCCC COP29) ötən il Azərbaycanda keçirilməsini alqışlayıb və Azərbaycanın Konfransda müsbət nəticələrin əldə olunmasının təşviqində sədrlik rolunu dəstəkləyib. Bu onu göstərir ki, ölkəmizin irəli sürdüyü, üzərində dayandığı bütün qlobal təklif və təşəbbüslər aparıcı beynəlxalq aktorlar tərəfindən dəstəklənir. Beləliklə, yeni dövrdə Azərbaycan-Çin münasibətlərinin əhəmiyyətli bir hissəsini də məhz yaşıl əməkdaşlığın tutacağına inam böyükdür. Prezident İlham Əliyev müsahibəsində qeyd etmişdi ki, Azərbaycan COP29-a sədrliyi çərçivəsində iqlim fəaliyyəti və dayanıqlı inkişaf arasında əlaqəni əhatə edən 14 qlobal təşəbbüslə çıxış edib və onlar geniş beynəlxalq dəstək alıblar. Əldə olunan razılaşmalar, dəstəklənən təşəbbüslər və qəbul edilən qərarlar bəşəriyyətin gələcəyi və dünyanın iqlim gündəliyi üçün müstəsna əhəmiyyətə malikdir. Dövlət başçısı fəal iştirakına və iqlim dəyişikliyi ilə mübarizədə qlobal səylərə qiymətli töhfəsinə görə Çinin nümayəndə heyətinə minnətdarlığını bildirmişdi.

Azərbaycanın apardığı "yaşıl gündəliy"in dəstəklənməsi imzalanan Birgə Bəyanatda da geniş şəkildə əks olunub. Vurğulanır ki, Çin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29) 29-cu sessiyasının uğurla keçirilməsi münasibətilə Azərbaycanı təbrik edir - hər iki tərəf COP29-un nəticələrini iqlim dəyişikliyi ilə mübarizə üzrə qlobal fəaliyyətə mühüm töhfə verəcək tarixi nailiyyət və dönüş nöqtəsi kimi alqışlayıblar. Eyni zamanda, tərəflər bütün ölkələri qlobal iqlim idarəçiliyi prosesini dəstəkləməyə, "BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası"na və "Paris Sazişi"nə uyğun olaraq öhdəlik və məsuliyyətləri tam və vicdanla yerinə yetirməyə çağırıblar: "Tərəflər inkişaf etmiş ölkələri öz tarixi öhdəliklərinə ləyaqətlə yanaşmağa, inkişaf etməkdə olan ölkələrə maliyyə, texnoloji və intellektual dəstək verməyə, inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyinə qarşı mübarizə imkanlarının gücləndirməsində kömək etməyə çağırırlar. Tərəflər qlobal iqlim idarəçiliyinə böyük töhfə vermək üçün iqlim dəyişikliyi ilə mübarizə sahəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığı gücləndirməyə davam edəcəklər".

Bundan başqa, Bəyanatda bildirilir ki, Çin Azərbaycanın sədrliyi ilə COP29 çərçivəsində irəli sürülən "Dayanıqlı və sağlam şəhərlərin formalaşması üçün Multisektoral Fəaliyyət Yolları" təşəbbüsünü yüksək qiymətləndirir.

### Milli təhlükəsizliyə və regional sabitliyə yaranacaq ciddi hədələrə qarşı birgə mübarizə

Sənəddə həmçinin bildirilir ki, tərəflər terrorizmin, separatizmin və ekstremizmin milli təhlükəsizliyə və regional sabitliyə ciddi hədə olduğunu və bu bəlanın qarşısının alınmasının və ona qarşı birgə mübarizə aparılmasının vacib olduğunu vurğulayıblar. İki ölkənin hüquq-mühafizə orqanları və təhlükəsizlik xidmətləri arasında əlaqələri və mübadilələri gücləndirmək, narkotik cinayətləri, transmilli mütəşəkkil cinayətkarlıqla, həmçinin kibertəhlükəsizlik kimi çağırışlarla birgə mübarizə aparmaq zəruridir - tərəflər əməkdaşlıq layihələrinin və iki ölkənin müəssisələrinin işçi heyətinin təhlükəsizliyini birgə təmin etməyə hazırdırlar: "Tərəflər humanitar minatəmizləmə sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyini vurğulayırlar, bu xüsusda Azərbaycan tərəfi Çin tərəfinin Azərbaycanın minatəmizləmə işinə dəstəyini yüksək qiymətləndirir, Çin tərəfi Azərbaycan tərəfinə madditexniki dəstək şəklində minatəmizləmə sahəsində potensialın möhkəmləndirilməsində bundan sonra da yardım göstərməyə hazırdır".

Bəli, vurğulanan bu nüanslar müasir gündəliyin ən əsas çağırışlarıdır desək, yanılmarıq. Son illərdə dünyada, xüsusilə Avrasiyanın ən strateji nöqtələrində yaranan ciddi təhdidlər, kataklizmlər təhlükəsizlik amilini ön sıraya çıxarır. Qarşıdurmalara rəvac verən, ayrı-ayrı ölkələri silahlandırma yolu ilə təhlükəsizlik seqmentini təhdid altında qoyan mərkəzlər və ölkələr sülhün və əməkdaşlığın inkişafında maraqlı deyillər - onlar, öz mənafeləri uğruna dünyada qarşıdurmaların artan xəttilə davamlı olmasını arzulayır və bu istiqamətdə fəaliyyət nümayiş etdirir. Belə bir zamanda, yeni qlobal münasibətlər sisteminin ən geostrateji nöqtələrindən biri hesab edilən Cənubi Qafqaz-Mərkəzi Asiya coğrafiyasında təhlükəsizliyin qarant altına alınması mühüm bir şərtə çevrilir. Ayrı-ayrı sabotaj hallarının aradan qaldırılması, bölgəyə kənar təsirlərin zərərsizləşdirilməsi üçün əməkdaşlığın bu sahə üzrə inkişafına xüsusi ehtiyac duyulur - Azərbaycan ilə Çin arasında imzalanan sənəddə bu məqamın yer alması gələcək dövr üçün olduqca böyük işgüzar perspektiv yaradır. Azərbaycanın Çin - Avropa xətti üzrə inteqrasiyada oynadığı rolun daha da şaxələndirilməsi, eyni zamanda çoxtərəfli mahiyyət daşıması üçün bu məsələ ən real və yüksək səviyyədə öz həllini tapır.

### Ümumbəşəri dəyərlərin təşviqinin lehinə çıxış edirik...

Birgə Bəyanatda tərəflər BMT mərkəzli dünya quruculuğunun və beynəlxalq hüquqa əsaslanan beynəlxalq nizamın və beynəlxalq münasibətlərin BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə əsaslanan əsas normalarının qorunmasına səy göstərdiyini, hegemonluğa və güc siyasətinə qarşı çıxdıqlarını da bəyan edirlər. Vurğulanır ki, hər iki dövlət ümumbəşəri dəyərlərin - sülh, inkişaf, bərabərlik, ədalət, demokratiya və azadlığın təşviqinin lehinə çıxış edir, yeni növ beynəlxalq münasibətlərin və bəşəriyyətin vahid taleyi birliyinin yaradılmasına səy göstərirlər: "Tərəflər birgə müzakirə, birgə quruculuq və birgə istifadə prinsipinə sadiq qalaraq, çoxtərəfliliyə sadiqliyi saxlayaraq qlobal idarəetmə sisteminin təkmilləşdirilməsini təşviq etməyə hazırdırlar. Tərəflər BMT-nin mərkəzi əlaqələndirici rolunun, formalaşmaqda olan bazara sahib ölkələrin və inkişaf etməkdə olan dövlətlərin təmsilçilik və səsvermə hüquqlarının artırılması naminə çıxış edir, BMT və digər çoxtərəfli strukturlar çərçivəsində sıx qarşılıqlı fəaliyyəti davam etdirməyə hazırdırlar".

Qeyd olunan nüans son illərdə Azərbaycanın xarici siyasət prioritetləri arasında da yer almaqdadır. Neokolonializmə, kiçik dövlətlərin və xalqların istismar olunmasına qarşı mübarizədə ön sıralarda yer alan Azərbaycan qlobal məkanın gənc, amma qətiyyətli, birlik və həmrəylik təşəbbüsləri ilə seçilən bir üzvü olaraq yeni beynəlxalq əlaqələr sisteminin humanizm prinsipləri əsasında qurulmasını təşviq edir. Çoxtərəflilik konseptual olaraq fərdi maraqları deyil, ümumən regional, hətta qlobal maraqları, dəyərləri qorumağı özündə ehtiva edən nəsnədir - Azərbaycan bu ülvi dəyərlərin inkişafını hər zaman üstün tutur. Azərbaycan öz xarici siyasətini, dövlət siyasətini dünya dövlətlərinin siyasəti ilə uzlaşdırır, konstruktiv, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, regional və qlobal miqyasda sabitliyə xidmət edən xətt yürüdür. Belə olan halda, Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətləri beynəlxalq münasibətlər sisteminin aparıcı dövlətləri üçün də strateji əhəmiyyət daşıyır. Ölkəmizin təşəbbüsü ilə yaradılan Bakı Təşəbbüs Qrupunun neokolonializmə qarşı mübarizədə qazandığı uğurlar göz önündədir - Azərbaycan bu fəaliyyəti qlobal sülhün və ədalətin bərpası üçün öz töhfəsini verir. Çinin bu məsələdə Azərbaycanın yanında olması, dəstəkləməsi qarşıdakı dövrdə bu xəttin davamlı və daha effektiv fəaliyyət ortaya qoyması üçün də stimul sayıla bilər.

### Bakı Pekinlə sülh və təhlükəsizlik üzrə birgə səylər göstərməyə hazırdır...

Birgə bəyanatda o da vurğulanır ki, Azərbaycan Çin tərəfindən təklif olunan Qlobal İnkişaf Təşəbbüsünü, Qlobal Təhlükəsizlik Təşəbbüsünü və Qlobal Sivilizasiya Təşəbbüsünü fəal şəkildə dəstəkləyir və BMT-nin 2030-cu ilədək olan Dayanıqlı İnkişaf üzrə Gündəliyinin həyata keçirilməsini sürətləndirmək üçün səyləri birləşdirmək məqsədilə "Qlobal İnkişaf Təşəbbüsünün Dostları Qrupu"na qoşulmağa hazır olduğunu bildirir. "Azərbaycan Çin tərəfi ilə qlobal təhlükəsizlik üzrə əlaqələr və qarşılıqlı fəaliyyət qurmağa, sülh və təhlükəsizlik üzrə birgə səylər göstərməyə hazırdır. Azərbaycan tərəfi Çinin BMT-də irəli sürdüyü "Sivilizasiyalararası Beynəlxalq Dialoq Günü"nün elan edilməsinə dair qətnaməni yüksək qiymətləndirir və sivilizasiyaların müxtəlifliyinə hörməti birgə müdafiə etməyə, humanitar mübadilə və əməkdaşlığı fəal şəkildə təşviq etməyə hazırdır. Çin mədəniyyətlərarası dialoqun təşviqi üçün qlobal platforma kimi "Bakı prosesi" adlı təşəbbüsə uyğun olaraq Azərbaycanın səylərini və bu təşəbbüs çərçivəsində çağırılan qlobal forumları dəstəkləyir", - deyə sənəddə qeyd olunur.

**P.İSMAYILOV**

# YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri davam edir




Çində səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti aprelin 24-də Urumçi şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının Siyasi Partiyalar Forumunun "İnkişaf imkanlarını paylaşmaq və iqtisadi qloballaşmanı təşviq etmək" adlı panel sessiyasında iştirak edib.

Panel sessiyasında çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov dəvətə və yüksək qonaqpərvərliyə görə Yeni Azərbaycan Partiyasının nümayəndələri adından Çin Kommunist Partiyasının rəhbərliyinə təşəkkürünü bildirib və forumun işinə uğurlar arzulayıb.

YAP Sədrinin müavini qeyd edib ki, müasir dövrdə mürəkkəb geosiyasi proseslərin baş verdiyi və qloballaşmanın geniş vüsət aldığı şəraitdə dövlətlərin siyasi gündəliyi olduqca zəngindir. Onun sözlərinə görə, müstəqil dövlətlər öz sosial-iqtisadi resurslarına, demoqrafik potensialına, coğrafi mövqeyinə və digər bir sıra mühüm amillərə görə strateji prioritetlərini müəyyən edərək çağdaş reallıqlara və qlobal çağırışlara uyğun siyasət həyata keçirməklə davamlı inkişafa nail olmağa çalışırlar: "Müxtəlif ölkələrin təcrübəsi dünyada bir sıra mütərəqqi inkişaf modelinin mövcud olduğunu göstərir. Onların hər biri spesifik xarakter daşısa da, ümumən başlıca sosial-iqtisadi məqsədləri, o cümlədən makroiqtisadi sabitliyin, sosial inklüzivliyin təmini, vətəndaş rifahının yüksəldilməsi kimi məsələləri özündə ehtiva edir. Daxili sabitlik, siyasi-hüquqi islahatlar vasitəsilə qanunvericilik bazasının möhkəmləndirilməsi, idarəçilikdə informasiya-kommunikasiya texnologiyalarının, süni intellektin tətbiqi və bu kimi digər amillər isə dayanıqlı inkişafa etibarlı zəmin yaradır".

YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb ki, istər Cənubi Qafqaz regionunun lider dövləti olaraq beynəlxalq müstəvidə yüksək nüfuza malik Azərbaycan, istərsə də dünyada aparıcı güc mərkəzlərindən biri kimi çıxış edən Çin özünəməxsus inkişaf modelinə sahibdir. O bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin məqsədyönlü siyasətinin qanunauyğun nəticəsi kimi yeni bir iqtisadi fenomen - "inkişafın Azərbaycan modeli" kimi səciyyələndirilən nümunə dünya siyasi və iqtisadi elitasının diqqətini cəlb etmişdir: "Müstəqillik illərində Azərbaycanın iqtisadi sistemi gücləndirilərək xarici təsirlərə davamlı hala gətirilmiş, maliyyə imkanları genişləndirilmiş, ümumi daxili məhsul, büdcə gəlirləri, xarici ticarət dövriyyəsi, ixracın həcmi dəfələrlə artmış, ölkənin strateji valyuta ehtiyatları xarici borcu 14 dəfə üstələmişdir. Davos Dünya İqtisadi Forumunun qlobal rəqabətlilik hesabatlarında Azərbaycanın mütəmadi yüksəlişi və dünyada islahatçı ölkələrdən biri kimi təqdim edilməsi bu reallığın bariz nümunəsidir".

Ölkəmizin iqtisadi inkişafı prosesində milli və qlobal çağırışlardan irəli gələn vəzifələrin, o cümlədən ətraf mühitin mühafizəsi faktorunun ön plana çəkildiyini söyləyən Tahir Budaqov vurğulayıb ki, biomüxtəlifliyin, su hövzələrinin, o cümlədən Xəzər dənizinin ekoloji mühitinin mühafizəsi, ekoturizmin inkişafı, təbii sərvətlərdən və bərpaolunan enerji mənbələrindən səmərəli istifadə xüsusi diqqət mərkəzində saxlanılır: "Azərbaycanın işğaldan azad olunmuş ərazilərində - Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında, Naxçıvan Muxtar Respublikasında "yaşıl enerji" konsepsiyası əsasında ekoloji təmiz texnologiyaların tətbiqi və ekoloji mühitin yaxşılaşdırılması həm alternativ enerji mənbələrinin artırılması və "yaşıl iqtisadiyyata" keçid, həm də milli genofondun qorunması və əhalinin sağlam gələcəyinin təmin olunması baxımından son dərəcədə əhəmiyyətlidir. Azərbaycanın 2024-cü ilin noyabr ayında COP29-a uğurla ev sahibliyi etməsi və bunun nəticəsi olaraq paytaxt Bakıda iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizəyə dair qlobal əhəmiyyətli qərarların qəbulu isə ölkəmizin "yaşıl inkişaf" siyasəti həyata keçirməklə iqtisadi qloballaşmanın təşviqində mühüm rol oynadığını təsdiqləyir".

YAP Sədrinin müavini qeyd edib ki, Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi kimi prioritetlər öz əksini tapmışdır: "Bu prioritetlərdən irəli gələn vəzifələrin yerinə yetirilməsi iqtisadiyyatın şaxələndirilməsi və xarici təsirlərə dayanıqlılığının gücləndirilməsi, maliyyə sabitliyinin qorunması, müasir infrastruktur quruculuğunun sürətləndirilməsi və tranzit-logistika potensialının genişləndirilməsi, rəqabətqabiliyyətli yerli istehsalın artırılması və ixracın stimullaşdırılması, ekoloji təmiz iqtisadi fəaliyyətin təşviqi və "yaşıl enerji" məkanının yaradılması, insan kapitalının inkişafı, bütövlükdə isə qloballaşma şəraitində milli məqsədlərin gerçəkləşdirilməsi və dayanıqlı inkişafın təmini baxımından olduqca mühüm əhəmiyyətə malikdir".

Bu gün ölkəmizin dostu və etibarlı strateji tərəfdaşı olan Çin Xalq Respublikasının inkişaf yolunun da dünyada böyük maraq və diqqətlə izlənildiyini, həyata keçirilən siyasət nəticəsində qazanılan uğurların beynəlxalq müstəvidə, o cümlədən Azərbaycanda yüksək qiymətləndirildiyini vurğulayan YAP Mərkəzi Aparatının rəhbəri bildirib ki, Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin yeni dövrdə bərabərlik, sosial ədalət, ictimai rifah, kollektiv inkişaf və güclü dövlətçilik prinsiplərinə əsaslanan Çin xüsusiyyətli sosializm konsepsiyası həm Çinin müstəqil dövlət kimi tərəqqisinə, həm də bəşəri mahiyyəti ilə xalqların xoşbəxt gələcəyinə hesablanmışdır: "Dünya sürətlə dəyişir, yeni çağırışlar meydana çıxır və daha effektiv vasitələrdən, o cümlədən innovasiyalardan istifadə etməklə hədəflərin reallaşdırılması zərurətə çevrilir. Sürətli transformasiya proseslərini müşahidə etdiyimiz hazırkı mərhələdə Çinin timsalında yerli resurslardan və müasir texnologiyalardan istifadə etməklə, səmərəli investisiya siyasəti həyata keçirməklə davamlı inkişafın təmin edilməsi iqtisadi qloballaşmanın təşviqi baxımından da böyük əhəmiyyətə malikdir".

Tahir Budaqov vurğulayıb ki, dövlət başçılarının iradələri sayəsində müxtəlif sahələri əhatə edən çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi məqsədilə 2024-cü ilin iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində qəbul olunan "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"də əksini tapan mühüm məsələlərdən biri də qarşılıqlı fəaliyyət əsasında hər iki ölkənin davamlı inkişafının təşviqidir: "Bəyannamədə qeyd edilmişdir ki, tərəflər milli xüsusiyyətlərinə uyğun seçilmiş inkişaf yolu boyunca bir-birilərinə qətiyyətli dəstək verməyə davam edəcək, ümumi inkişaf və firavanlığa nail olmaq üçün əməkdaşlıq etməyə hazırdırlar. Xüsusilə də, nəqliyyat-logistika sahəsində əməkdaşlığın genişləndirilməsi həm hər iki ölkənin və tərəfdaş dövlətlərin inkişafına, həm də Avrasiya geosiyasi məkanında iqtisadi qloballaşmanın təşviqinə önəmli töhfələr verəcəkdir. Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin mühüm tərkib hissəsi olan Azərbaycan Çinin "Kəmər, yol" layihəsinə ilk dəstək verən ölkələrdən biri kimi bu layihə və Orta Dəhliz çərçivəsində işbirliyinin genişləndirilməsində maraqlıdır. Çin Xalq Respublikası da bu istiqamətdə Azərbaycan ilə çoxtərəfli əməkdaşlıq niyyətini aydın ifadə edərək siyasi iradəsini aşkar nümayiş etdirmişdir".

YAP Sədrinin müavini qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bugünlərdə Çin Xalq Respublikasına rəsmi dövlət səfəri, şübhəsiz ki, ölkələrimiz arasında əməkdaşlığın inkişafına əlavə təkan verəcək və yeni məzmun kəsb etməklə ümumi dəyərlərə, mədəni köklərə və qarşılıqlı iqtisadi maraqlara əsaslanan çoxəsrlik Azərbaycan-Çin münasibətlərinin növbəti tarixi mərhələsinin əsasını qoyacaqdır: "Əminəm ki, hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinə əsaslanan məqsədyönlü birgə fəaliyyət bundan sonra da həm xalqlarımıza, həm də digər ölkələrə fayda verəcəkdir. Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyası ənənəvi dostluq münasibətlərinə və ötən ilin noyabrında imzalanmış əməkdaşlıq memorandumunun müddəalarına əsaslanaraq bu prosesdə fəal iştirak etmək və qarşıya qoyulan vəzifələri inamla yerinə yetirmək əzmindədir".

Forumun başa çatmasından sonra həmin gün YAP nümayəndə heyəti Çinin Çjetsyan vilayətinin Xançjou şəhərinə yola düşüb.

Xatırladaq ki, YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinə Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin müdiri Hülya Məmmədli və "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Musayev daxildir.

# Beynəlxalq aləmdəki yumşaq güc!

## Vətəndaş cəmiyyətinin inkişafı vacibdir...

Hər bir ölkənin inkişafını təmin edən mühüm amillərdən biri milli maraqların və xalqa məxsus milli-mənəvi dəyərlərin qorunmasıdır. Mütərəqqi baxışları özündə ehtiva edən milli ideologiyanın təbliği bu prosesdə mühüm rol oynayır. Şübhəsiz ki, bütün bu proseslərdə bir sıra subyektlərlə yanaşı, vətəndaş cəmiyyəti institutları da mühüm rol oynayır.

Elmi ədəbiyyatda "vətəndaş cəmiyyəti" anlayışı öz xüsusi məzmununu müəyyən edib və müasir şərhində cəmiyyətin vəziyyətini, xarakterini, onun sosial-iqtisadi, siyasi və hüquqi təbiətini, inkişaf və yetkinlik səviyyəsini ifadə edir. Başqa sözlə, bu anlayış altında tarixi təcrübə ilə əldə edilmiş, müəyyən meyarlara cavab verən cəmiyyət başa düşülür. Bu, sosial cəmiyyətin inkişafında daha yüksək pillədir. Vətəndaş cəmiyyətinin mahiyyəti çoxtərəfli, müxtəlif mənalıdır və alimlər tərəfindən müxtəlif cür şərh edilir. Lakin bir şey də aydındır ki, vətəndaşlardan ibarət hər cəmiyyət vətəndaş cəmiyyəti deyil.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti üzrə hazırlanmışdır

## Vətəndaş cəmiyyəti institutlarının legitim fəaliyyəti

Mövzu barədə "Yeni Azərbaycan"a danışan Bakı Qeyri-Hökumət Təşkilatlarının Resurs və Təlim Mərkəzinin sədri Rauf Zeyni bildirib ki, bu gün vətəndaş cəmiyyəti beynəlxalq aləmdə yumşaq gücdür. Bütün dövlətlərdə iqtisadi inkişafla bərabər həm də vətəndaş cəmiyyətinin güclü olması çox vacib bir faktordur. Ölkəmizdə dinamik siyasi sistemin struktur elementlərinin mütəmadi olaraq təkmilləşməsi vətəndaş cəmiyyəti institutlarının da legitim fəaliyyətinə əlverişli şərait yaradır. Onun sözlərinə görə, Azərbaycanın dinamik siyasi sistemə malik olması mülki şəxslərin könüllü birləşməsi nəticəsində yaranan, özünütənzimləmə və özünüidarə mexanizminə malik olan, qeyri-siyasi səciyyəsi ilə sivil şəxslər və münasibətlər sistemini ehtiva edən ictimai birlik kimi səciyyələndirilən vətəndaş cəmiyyətinin inkişafı üçün xüsusi önəm kəsb edən təməl strateji əsasdır: "Məhz bütün bunların fonunda vətəndaş cəmiyyəti özünün spesifik funksiyaları ilə cəmiyyətdə üzvi bütövlük, ahəngdarlıq və ümumi inkişafı təmin edən mexanizm kimi çıxış edir. Odur ki, məhz bu cür funksionallığın fonunda eyni təsisat daxilində mədəni, iqtisadi, sosial və hüquqi münasibətlərdə olan subyektlər qarşılıqlı surətdə bir-birlərinin sosiallaşmasına təsir etməklə yanaşı, yeni münasibətlər sisteminin formalaşmasını, həmçinin siyasi sistemin inkişafını şərtləndirir. Bu isə ümumi sosiumun tərkibində "mərkəzdənqaçma" meyillərini neytrallaşdırmaqla yanaşı, sosial, hüquqi, mədəni və iqtisadi münasibətlər sisteminin aktorları arasında qarşılıqlı əlaqələri təmin və mühafizə edən mexanizm qismində çıxış edir".



## QHT-lərin inkişafı dövlətin diqqət mərkəzində...

R.Zeyni qeyd edib ki, vətəndaş cəmiyyətinin başlıca institutlarından olan ictimai birliklər-QHT-lər də ictimai-siyasi proseslərdə mühüm rol oynayan subyekt kimi səciyyələndirilməlidir: "Azərbaycanda QHT-lərin fəaliyyəti üçün olduqca demokratik və leqal əsaslar formalaşdırılıb, bu istiqamətdə zəngin qanunvericilik bazası mövcuddur. Milli maraqlar və dəyərlər əsasında fəaliyyət göstərən QHT-lər vətəndaş cəmiyyətinin inkişafına mühüm töhfələr verməklə yanaşı, ictimai münasibətlər kontekstində inteqrasiyanı sürətləndirirlər.

Qeyd etmək lazımdır ki, ölkəmizdə QHT-lərin fəaliyyətini səmərəli edən mühüm faktorlardan biri də onların dövlət tərəfindən mütəmadi olaraq maliyyələşdirilməsidir. İctimai birliklərin maliyyələşdirilməsi, öz növbəsində, həmin qurumların qeyri-şəffaf mənbələrdən asılılığına imkan verməməklə yanaşı, milli maraqların və dəyərlərin mühafizəsinə də əhəmiyyətli töhfələr bəxş edir".

## Milli birliyin formalaşmasında vətəndaş cəmiyyətinin rolu

R.Zeyni qeyd edib ki, ölkəmizdə milli birliyin və həmrəyliyin formalaşmasında vətəndaş cəmiyyəti institutlarının, QHT-lərin rolu böyükdür. Onun sözlərinə görə, bu gün dövlətimizin diqqət və qayğısı ilə əhatə olunan vətəndaş cəmiyyəti institutları həyata keçirdikləri layihələrlə istər gənc nəslin milli ruhda tərbiyə olunmasında, istərsə də azərbaycançılıq ideologiyasının təbliğində mühüm rol oynamaqdadır: "Eləcə də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayan QHT-lər 44 günlük Vətən müharibəsi dövründə də öz üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəldi desək, yanılmarıq. Həmin dövrdə ölkəmizdə fəaliyyət göstərən QHT-lərin milli həmrəylik nümayiş etdirərək işğalçı Ermənistana qarşı birgə bəyanat qəbul etməsi, beynəlxalq təşkilatlara müraciətlər ünvanlaması haqq səsimizin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rollardan birini oynadı".

*Yeganə*

# Qədim İpək Yolu sivilizasiyasının mərkəzində

## İlham Əliyev: Azərbaycan və Çinin ali təhsil müəssisələrində müxtəlif ixtisaslar üzrə bakalavr, magistratura və doktorantura səviyyələrində təhsil almaq imkanı əldə edən ölkələrimizin vətəndaşlarının sayı ildən-ilə durmadan artır

Bütün dövrlərdə mədəni-humanitar sahədə əməkdaşlıq dövlətlər və xalqlar arasında münasibətlərin inkişafına, qarşılıqlı etimad mühitinin formalaşmasına güclü impuls verib. Bunu həmçinin hazırda strateji tərəfdaşlıq səviyyəsinə yüksələn Azərbaycan-Çin münasibətlərinin timsalında da aydın şəkildə izləmək mümkündür.

İki ölkə arasında siyasi diaqun intensivləşməsi, ticarət dövriyyəsinin artması ilə paralel şəkildə, humanitar-mədəni, xüsusilə də təhsil sahəsində əməkdaşlıq da genişlənir. Azərbaycan Prezidenti İlham Əliyev bugünlərdə Çinin Sinxua agentliyinə məxsusi müsahibəsində bundan məmnunluğunu ifadə edərək vurğulayıb: “Strateji tərəfdaşlığın qurulmasına dair Birgə Bəyannamədə iki ölkənin mövcud müqavilə-hüquqi bazası çərçivəsində təhsil sahəsində əməkdaşlığın sabit inkişafı bəyan edilib. Bununla yanaşı, biz dillərin öyrənilməsi və tədrisi sahəsində əməkdaşlığa xüsusi diqqət yetirmişik”.

### Tarixi bağlara söykənən mədəni-humanitar əlaqələr

Azərbaycanla Çin arasında mədəni əlaqələrin çoxəsrlik tarixi var. Bunu şərtləndirən əsas amil isə hər iki ölkənin coğrafi yerləşməsi ilə bağlıdır. Qlobal Cənubu təmsil edən Azərbaycan və Çin qədim İpək Yolu sivilizasiyasının mərkəzində yer alırlar. Tarixdə “Qədim İpək Yolu” kimi qalan marşrut yalnız karvanların keçməsinə, ticarət yüklərinin daşınmasına xidmət etmirdi. Bu yol həm də onun üzərində yerləşən ölkələrin, xalqların mədəniyyətlərinin inteqrasiyasında mühüm rol oynayırdı. Ayrı-ayrı ölkələri təmsil edən tacirlər ayaq basdıqları yerlərə eyni zamanda öz xalqlarının mədəniyyətini daşıyırdılar.

Azərbaycan cəmiyyətində tarixən Çinə və onun mədəniyyətinə böyük maraq və rəğbət olub. Dahi Nizaminin yaradıcılığı bunun əyani təsdiqidir. Şair Çini sivil, yüksək mədəniyyətə malik ölkə kimi təqdim edib. Nizami çinli qadınların gözəlliyindən heyrətləndiyini gizlətməyib. Eyni zamanda, onun əsərlərində çinli bədii obrazlar mərdliyi, qorxmazlığı, cəsarəti ilə fərqlənirlər. Qeyd etmək yerinə düşər ki, Çin xalqı da dahi Azərbaycan şairinə, necə deyərlər, vəfa borcunu verib. Belə ki, 2012-ci il dekabrın 6-da Çinin paytaxtı Pekin şəhərində Çaoyan parkında Nizami Gəncəvinin abidəsinin təntənəli açılış mərasimi baş tutub.



Orta əsrlərdə Azərbaycanla Çin arasında tibb və təhsil sahələrində də əlaqələr qurulmuşdu. Bakı, Şuşa, Şəki, Quba, Şamaxı, Gəncə şəhərlərindəki mədrəsələrdə Çin təbabətinin, bu ölkəyə məxsus müalicə üsullarının sirləri öyrənilirdi. Arxeoloji qazıntılar və tarixi mənbələr sübut edir ki, Azərbaycanda Çinin duluşçuluq sənətinə həmişə böyük maraq göstərilib.

Keçmiş Sovet İttifaqı dönəmində də Azərbaycanla Çin arasında mədəni bağlar mövcud olub. Məlum olduğu kimi, dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin eyniadlı operettası əsasında 1945-ci ildə ekranlaşdırılan “Arşın mal alan” filmi hələ sovet dövründə 136 ölkədə nümayiş etdirilib, 86 dilə, o cümlədən də Çin dilinə tərcümə olunub. Film ölkənin rəhbəri Mao Tzedunun o qədər xoşuna gəlmişdi ki, hətta Çində onun “Çadra altında sevgi” adlı variantının çəkilməsi üçün əmr vermişdi. Ü.Hacıbəylinin məşhur “O olmasın, bu olsun” operettası da Çin dilinə tərcümə edilərək Pekində səhnəyə qoyulub. Ötən əsrin 50-ci illərinin əvvəllərində SSRİ Xalq artisti Rəşid Behbudov Çində olarkən burada ənənəvi proqramla yanaşı, bu ölkənin mahnılarını da ifa edib. Görkəmli Azərbaycan bəstəkarı Qara Qarayev tərəfindən 1949-1952-ci illərdə Nizami poemalarının motivləri əsasında yaradılmış “Yeddi gözəl” baletində Adacio Çin rəqsindən istifadə olunub. Azərbaycanın Xalq şairi Səməd Vurğun da Çində tanınır və sevilir.

2011-ci ilin mayında Çində Azərbaycan mədəniyyəti günləri, 2012-ci il 10-14 dekabr tarixlərində isə Azərbaycanda Çin Xalq Respublikasının mədəniyyət günləri keçirilib. 2019-cu ilin noyabrında Pekində Heydər Əliyev Fondu və ÇXR-dəki Azərbaycan Səfirliyinin dəstəyi ilə “Azərbaycan musiqisi axşamları” adlı konsert proqramı baş tutub.

2008-ci ilin 8-24 avqust tarixlərində Pekin şəhərində baş tutan XXIX Yay Olimpiya Oyunlarında Azərbaycan Milli Olimpiya Komandası 44 idmançı ilə 10 idman növündə təmsil olunub. Açılış mərasimində Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva iştirak ediblər. Onların Olimpiya Oyunlarının paytaxtına gəlmələri Azərbaycan idmançıları üçün güclü stimul olub və Milli Olimpiya komandamız Olimpiadanı 6 medalla (1 qızıl, 1 gümüş və 4 bürünc) başa vurub.

İndiki mərhələdə təhsil iki ölkə arasında yüksək dinamikaya malik humanitar-mədəni əlaqələrin mühüm istiqamətini təşkil edir. Azərbaycanlı tələbələr Çində müvəffəqiyyətlə təhsil alırlar. Elm və Təhsil Nazirliyi məktəblilər və tələbələr arasında mütəmadi qaydada “Çin dili körpüsü” müsabiqələri təşkil edir. Hazırda Azərbaycanın ayrı-ayrı ali təhsil müəssisələrində Çin dili tədris olunur. Eyni zamanda, Pekin Xarici Dillər Universiteti Azərbaycan dilinin öyrənilməsi proqramını həyata keçirir. Prezident İlham Əliyevin bildirdiyi kimi, iki ölkənin universitetləri arasında məhsuldar əməkdaşlıq həyata keçirilir, zəruri müqavilə-hüquqi baza yaradılır. Azərbaycan və Çinin ali təhsil müəssisələrində müxtəlif ixtisaslar üzrə bakalavr, magistratura və doktorantura səviyyələrində təhsil almaq imkanı əldə edən ölkələrimizin vətəndaşlarının sayı ildən-ilə durmadan artır. Konfutsi İnstitutunun tərəfdaşları olan Azərbaycanın bir sıra ali təhsil müəssisələrində Çin dili tədris olunur. Sevindirici haldır ki, son illərdə Çində də Azərbaycan dilinin və mədəniyyətinin öyrənilməsi mərkəzləri fəaliyyətə başlayıb, müvafiq kafedra yaradılıb.

Gələcəkdə Azərbaycanla Çin arasında mədəni-humanitar, elm və təhsil sahəsində əməkdaşlıq əlaqələri daha da genişlənəcək. Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində aprelin 23-də Pekində imzalanan “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat” buna geniş hüquqi əsaslar yaradır. Sənəddə vurğulanır ki, tərəflər mədəni və yaradıcı kollektivlər xətti üzrə əməkdaşlığı təşviq edəcək, xalqlar arasında qarşılıqlı anlaşmanı dərinləşdirmək və sivilizasiyalararası mübadiləni təşviq etmək məqsədilə qarşılıqlı mədəniyyət günlərinin keçirilməsini dəstəkləyəcəklər. Birgə Bəyanatda bildirilir ki, tərəflər müxtəlif kanallar vasitəsilə qarşılıqlı tələbə mübadiləsini davam etdirmək, Azərbaycanda Konfutsi institutlarının inkişafına dəstək vermək və təhsil müəssisələrində Azərbaycan və Çin dillərinin tədrisini təşviq etmək, habelə iki ölkənin müxtəlif tipli təhsil müəssisələri arasında müxtəlif səviyyəli tərəfdaşlıq əlaqələrinin qurulması barədə razılığa gəldilər. Sənəddə oxuyuruq: “Tərəflər Heydər Əliyev Fondu ilə Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyası və ŞƏT-in Mehriban Qonşuluq, Dostluq və Əməkdaşlıq üzrə Çin Komitəsi arasında qurulmuş tərəfdaşlıq əlaqələrini, həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin müvafiq Çin assosiasiyaları və institutları ilə əlaqələrinin genişləndirilməsini dəstəkləyirlər”.

Eyni zamanda, aprelin 23-də Pekində Azərbaycan Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin iştirakı ilə imzalanan Azərbaycan-Çin sənədlərinin bir çoxu perspektivdə ölkələrimiz arasında mədəni-humanitar, eləcə də elm və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsini hədəfləyir. İmzalanan sənədlərdən biri “Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhəri ilə Çin Xalq Respublikasının Sincan-Uyğur Muxtar Rayonunun Urumçi şəhəri arasında qardaşlaşmış şəhər münasibətlərinin qurulmasına dair Niyyət Məktubu”dur.

### Turist axını artır

Azərbaycan Prezidentinin bəhs olunan müsahibəsində diqqət çəkdiyi mühüm məqamlardan biri də turizm sənayesi ilə bağlıdır. Turizm çox doğru olaraq yalnız insanların səyahətə çıxmaları anlamında qəbul edilmir. Bunun digər sahələrdə əlaqələrin inkişafına da öz təsirini göstərdiyinə diqqət çəkən Prezident İlham Əliyev “Ötən il Azərbaycan turizmin inkişafı və işgüzar fəaliyyətin artırılması məqsədilə Çin vətəndaşlarına münasibətdə vizasız rejimi birtərəfli qaydada tətbiq etdi. Ölkələrimizin vətəndaşlarının vizasız gediş-gəlişinin asanlaşdırılması turist axınının artmasına kömək edəcək və bununla da iqtisadi, humanitar və mədəni əlaqələr genişlənəcək”, - deyə vurğulayıb.

Hazırda Çin əhali sayına görə dünya üzrə ən çox turist göndərən dövlətlərdən biri kimi qəbul olunur. Bu amil nəzərə alınmaqla ölkəmizin müvafiq qurumları tərəfindən Çindən respublikamıza turist cəlbediciliyini artırmaq məqsədilə müxtəlif tədbirlər görülür. Xüsusilə respublikamızda çinli turistlər üçün vizasız gediş-gəliş rejiminin tətbiqi, birbaşa uçuşların artırılması və birgə turizm layihələrinin reallaşdırılması bu sahənin inkişafına töhfə verməkdədir.

Görülən məqsədyönlü tədbirlərin nəticəsi olaraq Azərbaycandan Çinə və bu ölkədən respublikamıza turist axınında əhəmiyyətli dərəcədə artım müşahidə edilir. Ötən il Çindən Azərbaycana 44 min 798 turist gəlib. Bu, 2023-cü illə müqayisədə iki dəfə artım deməkdir. 2025-ci ilin yanvar ayında isə Çindən 2 min 603 turist Azərbaycana səfər edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 11 faiz çoxdur. Azərbaycandan Çinə ötən il 10 min 602 turist səfər edib. Bu isə 2023-cü illə müqayisədə 91 faiz artım deməkdir.

Pekində imzalanan Birgə Bəyanatda hər iki tərəfin turizm siyasətində qətiyyətli iradə nümayiş etdirdiyi bir daha təsdiqlənib. Bildirildiyi kimi, tərəflər turizm siyasətinin əlaqələndirilməsini gücləndirməyə, bir-birinin ərazisində turizmin təşviqi üçün tədbirlərin təşkilinə imkan yaratmağa, turizm müəssisələri, sahəvi assosiasiyalar və digər institutlar arasında profil əlaqələrini dəstəkləməyə, həmçinin ikitərəfli turist axınının və vətəndaşların qarşılıqlı səfərlərinin artırılmasında birgə fəaliyyət göstərməyə hazırdırlar. Eyni zamanda, “Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında ümumvətəndaş pasportlarına malik vətəndaşların vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş” imzalanıb. Bütün bunlar isə iki dost ölkə arasında turizm sahəsində yeni bir eranın başlamasından xəbər verir.

*Mübariz ABDULLAYEV*

# Balaxanı Sənaye Parkının ərazisi genişləndirilir...

Prezident İlham Əliyev Balaxanı Sənaye Parkının ərazisinin genişləndirilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Balaxanı Sənaye Parkının ərazisinin genişləndirilməsi məqsədilə Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodunun istifadəsində olan 18,415 hektar torpaq sahəsi icarə şərtləri ilə "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin istifadəsinə veriləcək. Bu qərar sənaye parklarının fəaliyyətində yeni istehsal-emal-ixrac imkanlarının daha da yaxşılaşdırılması və burada fəaliyyət göstərən rezident və qeyri-rezidentlərin sayının da artmasına səbəb olacaq, istehsal şəbəkəsi və məhsul istehsalı və ixracı üçün imkanlar da böyüyəcək, işçilərin əhatəsi də genişlənəcək. Bu isə sənayedə məşğulluğun da payının artmasına töhfə verəcək.

**7100-dən çox daimi iş yerinin yaradılması**

Sənaye parklarının fəaliyyətinin artması və bu modelin özünü nümunəvi iqtisadi subyekt kimi doğrultması həmin sektorda əlavə tədbirlərin həyata keçirilməsini zəruri edir, parkların ərazisinin genişləndirilməsi ilə bağlı qərarlar qəbul edilir. Dövlət başçısının müvafiq sərəncamları ilə indiyə qədər Sumqayıt Kimya Sənaye Parkının və digər sənaye müəssisələrinin əraziləri genişlənidilib. Sumqayıt şəhərinin inzibati ərazisində yerləşən dövlət mülkiyyətinə aid 29,63 hektar (Dövlət Neft Şirkətinin "Azərikimya" İstehsalat Birliyinin istifadəsində olan 26,86 hektar və həmin torpaq sahəsinə bitişik 2,77 hektar) torpaq sahəsinin icarəyə vermək hüququ ilə bu parkın ərazisi genişləndirilib. Eləcə də Hacıqabul Sənaye Parkının ərazisinin təxminən 2 dəfə böyüdülməsi nəzərdə tutulur.




Bundan başqa, ölkədəki digər yeni sənaye müəssisələrinin fəaliyyəti də genişlənməkdədir ki, bu da ümumilikdə sənayenin elmtutumlu sahə kimi böyüməsini təşviq edir. Bunun nəticəsində sənaye potensialı artır. Hazırda ölkəmizdə mövcud sənaye zonalarında 75-ə yaxın müəssisə istehsal fəaliyyəti ilə məşğuldur ki, bu sənaye komplekslərinə 6,8 milyard manat investisiya yatırılıb və 11 mindən çox daimi iş yeri yaradılıb. Növbəti mərhələdə sənaye zonalarına mövcud layihələr üzrə 1 milyard manata yaxın investisiyanın yatırılması, 7100-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur.

**Sənaye parkları qeyri-neft sektorunun inkişafına töhfə verir**

Hazırda ölkəmizdə Sumqayıt Kimya, Pirallahı, Mingəçevir, Qaradağ, Ağdam və "Araz Vadisi İqtisadi Zonası" və Hacıqabul Sənaye Parkı fəaliyyət göstərir. Dövlət başçısının ötən il dekabrın 5-də imzaladığı fərmana əsasən, Naxçıvan Sənaye Parkı yaradılmaqdadır. Ümumilikdə, sənaye parklarının sayı 8-ə çatıb. Eləcə də Masallı, Neftçala, Sabirabad və Şərurda yerləşməklə 4 sənaye məhəlləsi fəaliyyət göstərir ki, bu da regionlarda sənaye potensiallarının səfərbər olunması, həmin bölgələrin inkişafında mühüm rol oynayır.

Sənaye parkları və məhəllələri ölkəmizin iqtisadi imkanlarının daha da artırılması, qeyri-neft sektorunun davamlı inkişafına töhfə verəcək resursların tam hərəkətə gətirilməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun daha da artırılmasında mühüm əhəmiyyət daşıyır.

**Qarabağ və Şərqi Zəngəzurda sənayeləşmə dövrü başlayıb**

Qarabağ və Şərqi Zəngəzurda sayı daha da artan sənaye obyektləri, ələlxüsus da sənaye parklarında yeni rezidentlərin fəaliyyətə başlaması isə bu bölgənin sürətli inkişafına və ümumilikdə ölkə iqtisadiyyatına reinteqrasiyasına imkan yaratmaqdadır. Hazırda Ağdam Sənaye Parkı və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında ümumilikdə investisiya kapitalı 350 milyon manatdan çox olan 40-dan rezident fəaliyyət göstərir. İndiyədək rezidentlər tərəfindən sənaye parklarına 90 milyon manatdan çox investisiya yatırılıb. Artıq bu sənaye obyektləri bölgənin sürətli inkişafına və ümumilikdə ölkə iqtisadiyyatına reinteqrasiyasını sürətləndirir.

Digər sənaye parklarının inkişafı nəticə etibarilə sənaye bloklarının rentabelli fəaliyyəti sayəsində Azərbaycanın neft-qaz amilindən asılılığı daha da minimallaşacaq və ÜDM-də qeyri-neft sektorunun payı daha da artıracaq. Bu isə iqtisadi artıma töhfə verməklə, ölkəmizin sosial-iqtisadi inkişafında dayanıqlılığı daha da möhkəmləndirəcək.

Beləliklə, Balaxanı Sənaye Parkının ərazisinin genişləndirilməsi ölkəmzidə sənaye kompleksləri şəbəkəsinin genişlənməsi, sənaye zəncirinin möhkəmlənməsi və Azərbaycanda güclü ixrac yönümlü sənaye potensialının yaradılmasına öz töhfəsini verəcək. Növbəti illər üzrə artan tələbata uyğun istehsal həcminin də artırılması, sonrakı mərhələdə isə məhsulların xarici bazarlara çıxarılması ilə ölkəmizin qeyri-neft ixracatına töhfə verilməsi hədəf olaraq müəyyənləşdirilib. Nəticədə, bu, Azərbaycanın sənaye məhsulları ixrac edən ölkə kimi mövqeyinin daha möhkəmlənməsinə səbəb olacaq.

*E.CƏFƏRLİ*

# Qərbi azərbaycanlıların çağırışı II Qaregini təlaşa salıb

## İcma Erməni Apostol Kilsəsinin və "Monumentwatch" adlı qurumun bəyanatını pisləyib

Ermənilərin uzun illərdir ki, azərbaycanlılara qarşı soyqırımı və işğal siyasətində erməni kilsəsi hər zaman "aparıcı" rol oynayıb. Hələ ötən əsrin əvvəllərində başlanan bu planda erməni kilsəsi vahid mərkəz kimi çıxış edib. Erməni siyasi partiyaları, əsasən də "Daşnaksütyun" partiyası, erməni silahlı birləşmələrinin azərbaycanlılara qarşı basqınlarında aparıcı rol oynamağa başlayanda bütün proseslər kilsə tərəfindən idarə edilib, tədbirlər kilsələrdə keçirilib, kilsələr silah anbarı kimi istifadə olunub. Eləcə də kilsə xadimləri azərbaycanlılara qarşı hücumlarla bağlı çağırışlar ediblər.

**II Qaregin erməniləri revanşizmə çağırır**

Müasir dövrdə də Azərbaycan torpaqlarına qarşı işğalçılıq ideologiyasının əsas ilhamvericilərindən biri məhz erməni kilsəsi və onun başında dayanan katolikos II Qaregindir. Məlumdur ki, keçmiş Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanmasında, ermənilərin işğalçılıq siyasətini davam etdirməyə ruhlandırılmasında Qareginin "əməyi" çox yüksəkdir. II Qaregin dəfələrlə işğalçılıq siyasətini davam etdirmək məqsədilə maliyyə yardımları üçün erməni diasporuna çağırışlar edib.

Bütün bunların fonunda bugünlərdə Pasxa bayramı münasibətilə II Qareginin imzaladığı məktubda erməniləri yenidən revanşa çağırması təsadüfi sayıla bilməz. Əslində, Pasxa xristian aləminin əlamətdar bayramıdır və bu bayram müharibəni, qanı, savaşı deyil, sülhü və humanizmi tərənnüm edir. Lakin bu dəyərlərdən uzaq olan erməni katolikosu, din adı ilə təxribat yaradır, sülhə doğru addımları pozmağa çalışır. Məktubunda Qaregin Osmanlı imperiyasının guya ermənilərə qarşı "soyqırımı" törətməsi ilə yanaşı, Qarabağdan da ermənilərin zorla çıxarıldıqlarını iddia edib. O, həmçinin erməni diasporlarını Ermənistan ətrafında birləşərək hərəkətə keçməyə səsləyib.

**Varşavada keçirilən "Mədəni yaddaşımızda Qərbi Azərbaycan" sərgisi...**

Bu azmış kimi Erməni Apostol Kilsəsi və "Monumentwatch" adlı qurum Varşavada keçirilən "Mədəni yaddaşımızda Qərbi Azərbaycan" adlı sərgi ilə bağlı iftira və təhdid dolu "bəyanat" yayıblar. Həmin kağız parçasında iddia olunub ki, bu sərgi guya "Azərbaycanın Ermənistana qarşı ərazi ambisiyalarının, onun qədim Ermənistan xalqının mənəvi və mədəniyyət irsini mənimsəmək istəklərinin ifadəsi olan Azərbaycanın apardığı saxta təbliğatın növbəti təzahürüdür". Nə qədər absurd olsa da, bəyanatda Azərbaycan və alban abidələri "erməni irsi" kimi təqdim olunub.

Xatırladaq ki, aprelin 8-də Varşava şəhərinin mərkəzi küçəsində yerləşən Tvardovski meydanında Azərbaycanın Polşadakı səfirliyinin təşkilatçılığı, Qərbi Azərbaycan İcması və Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyinin dəstəyi ilə "Mədəni yaddaşımızda Qərbi Azərbaycan" adlı fotosərginin açılışı olub. Sərgidə Azərbaycanın Polşadakı səfiri Nərgiz Qurbanova çıxış edərək İrəvan xanlığının təkcə Azərbaycanın deyil, bütün Cənubi Qafqazın tarixində mühüm rol oynadığını bildirib. İrəvan xanlığının tarixinin Azərbaycan xalqının zəngin maddi və qeyri-maddi mədəniyyət tarixinin tərkib hissəsi olduğunu vurğulayıb. N.Qurbanova İrəvan şəhəri və onun ətrafında hidronim və oykonimlərin mütləq əksəriyyətinin Azərbaycan dilində olmasının bu ərazinin azərbaycanlıların qədim yaşayış məskənlərindən olduğunu sübut etdiyini diqqətə çatdırıb və XIX əsrin sonu XX əsrin əvvəllərində İrəvanda Şəriət, Karvansara, Qala, Sultan, Çölməkçi, Naxçıvan, Bazar, Daşlı, Paşa Xan və s. kimi çoxlu sayda Azərbaycan adına küçələrin mövcud olduğunu bildirib. O, avropalı səyyah və salnaməçilərin, o cümlədən JanBatist Tavernye, Jan Şarden, Dübua de Monper, Avqust fon Haksthauzen və digərlərinin əsərlərində İrəvan şəhərinin səciyyəvi müsəlman şəhəri kimi təsvir olunduğunu qeyd edib.

Diplomat indiki Ermənistan ərazisində mövcud olmuş 3500 tarixi və mədəni abidə, 500 qəbiristanlıq və 391 məscidin Qərbi Azərbaycanın tarixi irsinin tərkib hissəsi olduğunu vurğulayıb və 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1987-88-ci illərdə azərbaycanlılara qarşı həyata keçirilən deportasiya və qırğınların nəinki azərbaycanlıların indiki Ermənistandan kütləvi surətdə köçürülməsi ilə nəticələndiyi, həm də minlərlə tarixi abidə, məscidin yerlə-yeksan edildiyini təəssüflə diqqətə çatdırıb.

Səfir onu da qeyd edib ki, abidələri məhv etmək asan olsa da, tarixi ümumi yaddaşımızdan silmək mümkün deyil və öz soyunu Qərbi Azərbaycandan götürən azərbaycanlı gənclərin sərginin açılışında iştirakı bir daha sübut edir ki, gec-tez həqiqət üzə çıxır.

Aprelin 28-dək davam edəcək sərgidə Qərbi Azərbaycanın zəngin irsini əks etdirən şəkillər, eksponatlar, kulinariya nümunələri əks olunub. İrəvan xanlığının bayrağı, Qərbi azərbaycanlıların deportasiyası, dağıdılmış məscidlərimiz, abidələrimiz, qəbiristanlıqlarımız, Qərbi Azərbaycanın görkəmli şəxsiyyətlərinin fotolarının əks olunduğu sərgi iştirakçılar tərəfindən maraqla qarşılanıb, soydaşlarımızın başlarına gətirilən müsibətlər barədə onlara ətraflı məlumat verilib. Erməni Apostol Kilsəsinin sözügedən "bəyanatı" isə tarixi həqiqətləri təhrif etmək cəhdidir. Tarixin təhrif edilməsi üçün II Qareginin canfəşanlığı da heç bir nəticə verməyəcək.

**İcma: Bu, Ermənistanda dərin kök salmış irqçilik və dözümsüzlüyü nümayiş etdirir**

Yeri gəlmişkən, Qərbi Azərbaycan İcması məsələ ilə əlaqədar bəyanat verib. Bildirilib ki, Qərbi Azərbaycan İcması ədalətə əsaslanan davamlı sülhə və barışığa nail olmaq üçün Qərbi azərbaycanlıların qayıdış hüququ və onların mədəni irsi barədə beynəlxalq ictimaiyyəti məlumatlandırmaqda davam edir. Ermənistan tərəfi bu cür tədbirlərdən və təqdim olunmuş məlumatlardan düzgün nəticə çıxarmaq, törətdiyi hüquq pozuntuları və ədalətsizliyə görə öz məsuliyyətini etiraf etmək və Qərbi azərbaycanlıların qayıdışına şərait yaratmaq əvəzinə, həqiqətin ortaya çıxarılmasına və barışığa xidmət edən addımlarımıza qarşı çıxır.

Bəyanatda, həmçinin deyilir: "Ermənistan hakimiyyət orqanlarının təşkilatçılığı ilə atılması şübhə doğurmayan bu addımlar Ermənistan hökumətinin sülh və barışıq istəmədiyini, bu ölkədə dərin kök salmış irqçilik və dözümsüzlüyü nümayiş etdirir. Çox maraqlıdır, Erməni Apostol Kilsəsi və mədəni abidələrlə bağlı Azərbaycana çoxsaylı iftiralar atan "Monumentwatch" təşkilatı indiki Ermənistan ərazisində cəmi bir əsr əvvəl rəsmi dövlət qeydiyyatında olmuş 269 məsciddən 268-nin məhv edilməsinə və 500-dən artıq azərbaycanlı məzarlığının dağıdılmasına necə haqq qazandırır?". Qərbi Azərbaycan İcması Erməni Apostol Kilsəsi və "Monumentwatch" adlı ekstremist qurumun təhdid və iftira yolu ilə həqiqətlərin ört-basdır edilməsinə xidmət edən, dözümsüzlük yayan və barışığa mane olan bu addımlarını sərt şəkildə qınayıb, beynəlxalq ictimaiyyəti Ermənistan ərazisindəki Azərbaycan mədəni irsinin bərpası və qorunması üçün bu dövlətə təzyiq göstərməyə çağırıb".

*Nardar BAYRAMLI*

# ABŞ-ın Panama və Qrenlandiya marağı...

Tramp Ağ Evə qayıtdıqdan sonra Vaşinqtonun Panama kanalına və Qrenlandiyaya diqqəti artırıb. Belə ki, Tramp administrasiyasının xarici siyasət proqramında hər iki bölgə həm geostrateji, həm geosiyasi, həm də geoiqtisadi cəhətdən xüsusi əhəmiyyət kəsb edir. Qlobal logistik daşınmaların 6 faizdən çoxunu təşkil edən Panama kanalı Atlantik və Sakit okean arasında yeganə beynəlxalq ticarət marşrutdur ki, ABŞ ilə yanaşı, digər güc mərkəzlərinin gəmiləri də bu kanaldan keçid kimi istifadə edir. Dünyanın ən böyük adası olan Qrenlandiya isə istismar olunmayan enerji resursları ilə zəngin, ən əsası da Arktika ilə Atlantik okean arasında logistik marşrut potensialına malikdir. Bu baxımdan belə hesab etmək olar ki, hazırkı administrasiya ABŞ-ın Panama kanalında və Qrenlandiyada siyasi, iqtisadi və hərbi təsir imkanlarını artırmaq üçün müəyyən tədbirlər görməyə hazırlaşır.

## Vaşinqton hərbi mövqeyini möhkəmləndirir

ABŞ Panama kanalı zonasında qoşunlarının sayını artırmaq niyyətindədir. ABŞ müdafiə naziri Pit Heqset Pensilvaniya ştatının Karlayl şəhərində yerləşən ABŞ Quru Qoşunları Kollecində çıxışı zamanı bildirib ki, ABŞ Panama kanalının hər iki sahilində qoşunlarının sayını artıracaq. Xatırladaq ki, ABŞ-ın Panamada hərbi mövcudluğunu genişləndirmək planları barədə P.Heqset aprelin 9-da Panamaya səfəri zamanı elan edib - həmin vaxt hər iki ölkənin hərbçiləri rotasiya əsaslı birgə təlimlər aparırdı.

Eyni münasibət Qrenlandiyaya da sərgilənir. Xüsusilə vurğulayaq ki, ötən ayın sonunda ABŞ vitse-prezidenti Ceyms Devid Vens, o cümlədən ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Mayk Uolts, energetika naziri Kris Rayt və respublikaçı senator Mayk Li Qrenlandiyaya səfər ediblər. Onların təyyarəsi Qrenlandiyanın şimalında yerləşən ABŞ-ın Pituffik aviabazasına eniş edib. Ekspertlər bu səfəri Vaşinqtonun Qrenlandiyada hərbi-strateji mövqeyini möhkəmləndirmək niyyətində olması kimi qiymətləndirirlər.



## Hər iki bölgə Tramp üçün niyə bu qədər əhəmiyyətlidir?

Məsələ ilə bağlı Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin eksperti Sultan Zahidov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Tramp administrasiyasının həm Qrenlandiya, həm də Panama kanalı ilə bağlı mühüm hədəfləri var. "Hər hansı regionun strateji əhəmiyyəti onun istənilən dövlətin milli təhlükəsizliyində oynadığı roldan asılıdır. Amerikanın coğrafi xəritəsinə baxdığımızda ABŞ-a 3 istiqamətdən təhlükənin gəldiyini görərik. ABŞ - a qarşı real təhlükə cənub - Meksika və Latın Amerikası, şimal-qərb - Berinq boğazı və şimal-şərq - Arktika istiqamətində hiss olunur. Xüsusilə, son zamanlar Arktikada Rusiya donanmasının daha da fəallaşması Vaşinqtonu narahat edir. ABŞ Rusiyanın Arktikada möhkəmlənməsini özünə ciddi təhdid kimi görür. Bu səbəbdən Qrenlandiya ABŞ-ın milli-təhlükəsizlik strategiyasında çox mühüm prioritetlərdən biri hesab olunur. Trampın özü bunu çox yaxşı başa düşür. O ki qaldı Panama kanalının əhəmiyyətinə, hesab edirəm ki, burada geosiyasi və geoiqtisadi faktorları nəzərdən keçirmək lazımdır. Bildiyimiz kimi, Atlantik və Sakit okeanı bir-birinə birləşdirən Panama kanalı qlobal dünyanın ən önəmli logistik və ticarət marşrutudur," - deyə S.Zahidov əlavə edib ki, Çin gəmilərinin bu kanaldan istifadə etməsi ABŞ tərəfindən birmənalı qarşılanmır: "Çinin Panama kanalında təsir imkanlarının artmasından narahat olan Tramp çıxışlarının birində kanalın Vaşinqtonun nəzarətinə qaytarılmasının vacibliyini vurğulayıb. Qeyd edim ki, bu kanal 1999-cu ilə qədər ABŞ-ın nəzarəti altında olub. 1977-ci ildə ABŞ ilə Panama arasında imzalanmış "Torrixos-Karter" müqaviləsinə əsasən kanal 1999-cu ildən sonra Panama hökumətinin nəzarətinə keçib".

## Tramp hərbi gücdən istifadə edə bilər?

S.Zahidov vurğulayıb ki, ABŞ-ın həm Panama kanalını, həm də Qrenlandiyanı nəzarət altına almaq üçün hərbi güc imkanlarından istifadə etməsi inandırıcı görünmür: "ABŞ müdafiə naziri Pit Heqsetin Panamaya səfəri zamanı hər iki ölkə arasında təhlükəsizlik sahəsində saziş imzalandı. Bu sazişə görə, ABŞ Panama kanalı ətrafında öz qoşunlarının sayını artıra bilər. Sözsüz ki, Panamanın suverenliyinə hörmət etmək öz yerində qalır. Qrenlandiyaya gəlincə, bu ərazi Danimarkanın qanuni ərazisidir və Danimarka da NATO-nun üzv ölkəsidir. Hər hansı NATO ölkəsinin ərazisində hər hansı NATO ölkəsinin hərbi bazasının olması problem yaratmır. Misal üçün ABŞ-ın Almaniyada hərbi bazaları var. ABŞ-ın Qrenlandiyadakı hərbi bazası Danimarkaya heç bir təhlükə yaratmır. Bəli, Tramp Qrenlandiya məsələsində çox qətiyyətli mövqe sərgiləyir və Danimarkaya təzyiqlər edir, amma Trampın hərbi gücdən istifadə etməsi reallıqdan uzaqdır. Əgər Vaşinqton Qrenlandiyada da qoşunlarının sayını artırmaq fikrinə düşərsə, bu, Danimarka ilə danışıqlar əsnasında həll olunacaq".



## Kopenhagen ABŞ-dan, yoxsa Rusiyadan ehtiyatlanır?

Danimarka Nazirlər Kabineti Baltik dənizi sahilindəki Bornholm adasındakı hərbçilərin sayını artırmaq barədə qərar qəbul edib. Müdafiə Nazirliyinin məlumatında qeyd olunur ki, Bornholmda yerləşdirilmək üçün 1000 nəfərə qədər ayrıca piyada alayının yaradılması təklif olunur. Danimarka 2033-cü ilə qədər ordusunun sayını 5 min nəfər artıraraq 28 min nəfərə çatdırmağı planlaşdırır. Maraqlıdır, Kopenhagenin təhlükəsizlik tədbirləri ABŞ-a qarşı yönəlib, yoxsa Rusiyaya? S.Zahidov bildirib ki, burada əsasən Rusiya faktoru nəzərə alınır: "Rusiyanın Kaliningradda böyük hərbi donanmaya sahib olması, xüsusilə də Baltik dənizində hərbi fəallığını artırması Danimarka daxil olmaqla Skandinaviya ölkələrində ciddi narahatlıq yaradıb. Danimarkanın son tədbirləri Rusiyaya qarşı yönəlib".

*Yunis ABDULLAYEV*

# Makron Madaqaskarda...

## Yelisey Sarayı Hind okeanını böyük bazar kimi görür

Bugünkü Fransanın reallıqları ilə prezident Makronun iddiaları üst-üstə düşmür. Makron yeni dünya nizamının formalaşdığı indiki mərhələdə ölkəsini qlobal güc mərkəzlərindən birinə çevirməklə bağlı planlar qursa da, bu perspektiv heç üfüqdə də görünmür. Məhz onun iki prezidentliyi dönəmində həyata keçirilən səriştəsiz siyasət ucbatından daxili gərginliklərlə, yeni inqilab dalğası ilə üz-üzə qalan Fransa beynəlxalq nüfuzunu da sürətlə itirməkdədir.

Təbii ki, Makron ölkəsi ətrafında baş verənlərin fərqindədir. O, proseslərin bu şəkildə irəliləməsi ilə barışmaq istəmir və yaranmış vəziyyətdə dönüş yaratmaqdan ötrü canfəşanlıq göstərir, müxtəlif manipulyativ davranışlar sərgiləyir. Analitiklər Makronun Hind okeanı turnesinə çıxmasını da çox doğru olaraq məhz bu nöqteyi-nəzərdən dəyərləndirirlər. Yelisey Sarayının sahibi Mayot və Reyunyondan sonra Madaqaskara gedib. Lakin səfərlə bağlı daha çox pessimist ruhda rəylər və proqnozlar verilir ki, bu da səbəbsiz deyil.

### Xoş məramdan uzaq olan səfər

Makronun Madaqaskara səfəri, bütövlükdə Hind okeanı turnesi heç də xoş mərama əsaslanmır. Məlumdur ki, Fransa zamanında müxtəlif vasitələrlə Afrikanın qərbində və şimalında 20-dən çox ölkəni öz təsir dairəsinə qatmağa nail olub. Afrikanın ərazilərinin təxminən 35 faizi 300 il ərzində tamamilə Fransanın nəzarətində qalıb. Hazırda isə müstəmləkə ərazilərində əks proseslər gedir. Həmin ərazilərdə aborigen xalqların Fransadan qopmağı hədəfləyən mübarizəsinin əhatə dairəsi davamlı olaraq genişlənir. Müstəmləkə ölkələri Fransanın sümürmə siyasətindən qurtulub öz talelərinin sahibi olmağa, müstəqilliyə qovuşmağa, milli kimliklərini qoruyub saxlamağa can atırlar. Madaqaskar da bu sırada yer alır. Makronun bəhs olunan səfərinin əsas məqsədi də Hind okeanında Fransanın rolunu bir daha təsdiqləməkdir. Makron Madaqaskara aydın ambisiya ilə gedib. O, Hind-Sakit okean strategiyasını inkişaf etdirmək üçün Hind okeanında fransızların təsirini artırmaq istəyir. Hələ Reyunyon adasında olanda Makron belə bir iddia səsləndirib: "Hind-Sakit okean regionunda 8000-dən çox əsgərimiz var. Bu, gözlədiyimiz və inkişaf etdirdiyimiz işin nəticəsidir. Mən də buna görə Madaqaskarda Hind Okeanı Komissiyasında iştirak etmək istədim. Burada regional əməkdaşlıq və iqtisadi təhlükəsizlik məsələlərində Fransanın mövqeyini müdafiə edəcəyəm".

Fransa prezidenti vurğulayıb ki, ölkəsi özünü regionda güclü dövlət kimi təqdim edir. Buna görə də Qəmər adalarının etirazına baxmayaraq, Mayotu Hind Okeanı Komissiyasının proqramlarına uyğunlaşdırmaq üçün imkanlara malik olacağına ümid bəsləyir: "Həqiqətən də, fikir ayrılıqlarımız var. Lakin biz onlara hörmətlə və hər şeydən əvvəl praqmatizmlə yanaşa bilərik".

Məlumdur ki, Yelisey Sarayı indiki mərhələdə artan etirazları nəzərə almaqla klassik müstəmləkəçiliyi neokolonializm metodları ilə əvəzləyir. Burada forma dəyişsə də, yeni teminlərdən istifadə olunsa da, rəsmi Paris müstəmləkə ambisiyalarından əsla geri çəkilmir. Yelisey Sarayının yeni kolonializm siyasətində müstəmləkə ölkələrinə iqtisadi təzyiq göstərilməsi, onların maliyyə asılılığında saxlanılması qırmızı xətt kimi keçir. Ada dövlətləri məhz Fransanın onilliklər ərzində ağır şərtlər altında davam etdiriyi müstəmləkəçilik siyasətinə görə öz iqtisadiyyatlarını qura bilməyiblər və asılı vəziyyətdədirlər. Bundan istifadə edən rəsmi Paris isə müstəmləkə ərazilərində təbii sərvətlərin talanmasının miqyasını getdikcə daha da genişləndirir və daha sərt metodları işə salır. Həmçinin bu aydın olur ki, Yelisey Sarayı Hind okeanını böyük bazar kimi görür. Makron ölkəsinin iqtisadi maraqlarını gizlətməyib və açıq mətnlə bildirib ki, Hind Okeanı Komissiyasının bazarını fəth etməliyik. "Şərqi Afrika, Hind okeanı, müəyyən sektorlarda Hindistana qədər uzanan estafet... Biz dünyaları dəyişirik", - deyə Fransa prezidenti vurğulayıb.

Makronun Madaqaskar səfərinin Fransanın Mozambik kanalı ilə bağlı maraqlarına dair müzakirələrlə yadda qalacağı da gözlənilir. Afrika qitəsini Madaqaskardan ayıran bu dəniz zonasında rəsmi Antananarivo bir neçə fransız adasına iddia edir. Ərazi mübahisəlidir, çünki bu kəsişmə çox stratejidir. Uzunluğu 1500 kilometr olan Mozambik kanalı, ilk növbədə son aylarda Qırmızı dənizdə yaranan gərginlik fonunda qlobal dəniz nəqliyyatı marşrutu qismində yenidən diqqət mərkəzinə gəlib. "Attika analiz" məsləhət firmasının eksperti Jan-Mark Balensiyaya görə, Süveyşdən keçən beynəlxalq nəqliyyatın böyük bir hissəsi Mozambik kanalına yönləndirilib ki, bu da buradan istifadə edən nəqliyyatın əhəmiyyətli dərəcədə artmasına səbəb olub. Bu, vacib strateji marşrutdur, çünki Şimali Amerika və Avropa bazarlarına çıxmağa imkan verir. Həmçinin balıqla çox zəngin olan Mozambik kanalının suları əhəmiyyətli qaz və neft ehtiyatlarına malikdir. Balensiyanın verdiyi məlumata əsasən, Tanzaniyada istismar artıq başlayıb. Mozambikin Kabo Delqado bölgəsində çox vacib yataqlar mövcuddur. Lakin təhlükəsizlik problemi layihənin düzgün işləməsinə mane olur. Mayot adasında olanda Makron Mozambik kanalının malqaşlar üçün iqtisadi imkanlarını vurğulayıb. Bildirib ki, Fransanın iri şirkətləri tezliklə orada yerləşdirilməlidir.

Göründüyü kimi, Makron tələsir. O, yeni geosiyasi reallıqlar və çağırışlar fonunda ölkəsinin iqtisadi maraqlarını önə çəkir. Bəri başdan Makronun planlarının reallaşacağını söyləmək isə çətindir. Çünki Mozambik kanalı digər güc mərkəzlərinin də maraq dairəsindədir. Rəqabətdə isə biz son vaxtlar rəsmi Parisin ardıcıl uğursuzluqlarının şahidi oluruq...





### Tarixə aydınlıq gətirilməlidir

Makronun planlarını puç edəcək əsas amillərdən biri isə Fransanın üzqarası siyasətidir. Bu ölkə Madaqaskarda da kədərli izlər qoyan müstəmləkəçilik tarixinə malikdir. Madaqaskar Hind okeanının qərbində və Afrikanın cənub-şərqində Madaqaskar və digər adaların üzərində yerləşən dövlətdir. Fransa parlamenti 1896-cı ilin avqustunda Afrikanın şərqindəki Madaqaskar adasını Fransanın müstəmləkəsi elan edərək adaya 15 min əsgər göndərilməsinə qərar verib. 1897-ci ilin sonlarında müqavimət hərəkatı tamamilə boğulub və adanı idarə etmək üçün general-qubernatorluq yaradılıb.

Rəsmi Paris digər ərazilərdə törətdiyi müstəmləkəçilik cinayətlərini, zaman-zaman Madaqaskarda da təkrarlayıb. Onun xələfləri belə addımlar ataraq etiraflarda bulunublar. Belə ki, 2005-ci ildə Jak Şirak Madaqaskara sonuncu dövlət səfəri zamanı müstəmləkə sisteminin həddini aşması nəticəsində yaranan repressiyaları "qəbuledilməz" adlandırıb. İyirmi il sonra tarixçilərin Makrondan gözləntiləri daha çoxdur. Onlar qaranlıq səhələrin son dərəcə çox olduğunu, məsələn, müstəmləkəçilik dövrünün başlanğıcında nə qədər insanın başının kəsildiyinin bilinmədiyindən danışırlar. Mütəxəssislərə görə, başqa bir qaranlıq məsələ 1947-ci ildə baş vermiş mart üsyanı qurbanlarının sayıdır. Mənbələrdə bu say 10 min - 100 min arasında olduğu göstərilir. 2016-cı ildə prezident Fransua Olland 1947-ci ilin martında adanın Fransa tərəfindən qəddar repressiyaya məruz qaldığını etiraf edib və minlərlə qurbandan danışıb.

Ona görə də Makron bu hadisələrlə bağlı xüsusi qeydlər etməlidir. "Gələcək nəsil üçün tarixə aydınlıq gətirilməlidir. Gözlədiyimiz odur ki, Fransa bizim müstəmləkə zorakılığı dediyimiz hadisələri işıqlandırmaq və hər kəsin məsuliyyətini müəyyən etmək üçün Kamerunda yaratdığımız komissiyaya bənzər bir qurum yaratsın. Biz general və polislərimizlə bağlı məlumatları bilmirik. Bununla bağlı arxivlərə müraciət edə, müvafiq məlumatları işıqlandıra bilərik", - deyə malqaş tarixçi bildirib.

Ümumi qənaət belədir ki, Makron rəsmi Parisin siyasi sifarişləri əsasında adada törədilən cinayətlərə görə Fransanın adından üzr istəməlidir. Öz növbəsində mütəxəssislər hesab edirlər ki, bu proses yalnız "üzr istəyirik" deməklə bitməməli, təzminat ödənilməli, bərpa tədbirləri görülməli və digər müvafiq işlər həyata keçirilməlidir. Yelisey Sarayına inam yalnız bundan sonra yarana bilər.

*Mübariz ABDULLAYEV*

# Viran vücuddan qaçış

## Akutaqava Rünoskenin həyatıyla sənətinin qovuşağında

*əvvəli ötən saylarımızda*

Mövzusunu qədim Çin xronikalarından götürdüyü kiçicik "Bisey necə inanırdı" (1919) novellasının səfeh, sadədil qəhrəmanını Akutaqava vur-tut bir neçə abzasla romantik qəhrəmana çevirə bilib. Gəncliyimin erkən çağında bu kiçik hekayənin məni necə tərpətdiyini yaxşı xatırlayıram, o dövrdə Akutaqavanın bu novellası mənim estetik dünyagörüşümə həlledici təsir göstərən əsərlərdən biri olmuşdu. 1987-ci ilin elə bu ayında, on doqquz yaşımın içində yazdığım "Tək ağac" adlı lirik hekayədə (ilk kitabım da həmin adla çıxmışdı) bu təsirin izini görmək çətin deyil. Doğrudur, mən o vaxtlar Füzulini nəsrə gətirmək xəyalıyla yaşayırdım, ancaq bu işdə tək klassik anadilli poeziyamızın peyğəmbəri yox, modern dünya nəsrinin azdan-çoxdan tanıdığım klassikləri də dadıma çatır, mənə yol göstərirdilər.

Novellada gənc oxucunu sarsıdan nəydi - ilk növbədə ondakı dərin lirizm, bir çayın qırağından, bir körpünün altından pərvazlanıb kosmik miqyasa qədər genişlənən poetik siqlət, təbiətdə, kainatda heç bir sərhəd, qoruqqaytaq tanımayan panteistik cəsarət! Bisey təbiətin qoynuna yad oğlu yad kimi kənardan, oğru kimi arxa qapıdan dürtülmür. Bisey bütün varlıqlar kimi kainatın ucqarında yox, mərkəzindədir, Bisey ana təbiətin bətnində, öz evindədir. Bisey heç nəyin, heç kimin dalınca qaçmır, axtardığı özü onun ayağına gəlməlidir, gəlir də, çünki onun sarsılmaz inamı var:

"Bisey körpünün altında dayanıb sevgilisini gözləyirdi. Yuxarıda, başının üstündə, yarıyacan sarmaşığa bürünmüş hündür daş məhəccərlərdən o tərəfdə arabir körpüdən ötüb-keçənlərin qüruba gedən günəşin saçaqlarıyla işıqlanıb xəfifcə yellənən ağ paltarlarının ətəkləri görünürdü... O isə gəlib çıxmaq bilmirdi.

Bisey səbirsiz halda suya yaxınlaşıb bircə qayığın belə üzmədiyi sakit çaya baxmağa başladı.

Çay boyunca bitən qamışlar yaşıl divar kimiydi. Qamışlığın üzərindən addabudda sıx söyüdlər gözə dəyirdi. Çay enli olsa da, qamış basmış suyun üzü darısqal görünürdü. Göydəki sədəf rəngli tək bulud parçasının əksi düşmüş təmiz su zolağı ona qızılı rəng qatıb qamışların arasından sakitcə burulub axırdı... O isə gəlib çıxmaq bilmirdi".

Bisey çayın qırağıyla vargəl eləyə-eləyə alatoranda sakitliyi dinşəyir. Körpüdə artıq gediş-gəliş kəsilir, yel əsdirən qamışların xışıltısından, suyun çırpıltısından başqa səs-səmir eşidilmir. Üzü qaranlığa getdikcə su qabarır, lilli sahilə doğru enlənən çay daha yaxında bərq vurur. Sevgilisi hələ də gəlib çıxmaq bilmir.

Günəş sönür, qaranlıq düşür, çay qabarır, Bisey çayın qırağında, körpünün altında hələ gözləyir. Yatağından çıxan çayın timsalında kainat onun ayağına sürünür, su yavaş-yavaş onun topuğuna, dizinə, sinəsinə qalxır, ana təbiət balasını ağuşuna alıb udum-udum onu canına çəkir. Bisey yenə gözləyir.

Bəlkə elə budur onun gözlədiyi, ayağına gələn təbiətə, onu qoynunda atıb-tutan sulara qovuşmaqdır istədiyi?

Artıq balıqlar onun başının üstündə üzür. Sevgilisi hələ də gəlmir ki, gəlmir:

"Gecənin bir aləmi - Ay işığı çay boyunca qamışları, söyüdləri aydınlatdığı saatda pıçıldaşan suyla külək yavaş-yavaş Biseyin cəsədini körpünün altından alıb dənizə doğru apardı. Biseyin ruhu isə göyün qəlbinə, qəmli ay işığına sarı qanadlandı. Yəqin ona görə ki, sevirdi. Xəlvətcə bədəndən çıxan ruh lil qoxusu, su təravəti kimi buğlana-buğlana tutqun işıqlı səmaya qalxmağa başladı...

Neçə min il ondan sonra neçə dəfə cilddən-cildə düşmüş bu ruha yenidən insan həyatı etibar olundu. O ruh elə məndə məskən salmış bu ruhdur. Ona görə bu zamanda doğulsam da, zəmanə adamı deyiləm, əlimdən karlı bir iş gəlmir. Gecə-gündüz xəyallarla yaşayıram, elə hey gözləyirəm ki, nəsə, kimsə gəlib məni heyran qoyacaq. Eynən alatoranda körpünün altında durub, heç bir vaxt gəlməyəcək sevgilisini gözləyən Bisey kimi..."

***

Akutaqava özü də Biseyin ardınca gedib özünü təbiətə könüllü təslim elədi. Onun da sevgilisi görüşünə gecikirdi deyə gözləməyə səbri yetmədi, bütün itkinliklərin, ayrılıqların, çəpləşmələrin sona çatdığı ilkin qaynağa, əbədi yoxluğa (Qəribədir, bir-birinə daban-dabana zidd olan bu iki söz necə rahatlıqla yanaşı durur!), Basönün nohuruna baş vurdu.

Onun nakam ruhuna o yoxluqda əbədi dinclik arzulaya bilərdik, ancaq fikir, söz oyunu kimi çıxmasın, yoxluqda əbədiyyət də yoxdur, əbədiyyət ruha aid anlayışdır, varlığın xassəsidir. Akutaqavanın qaranlıq zindana bənzər cisminin çırağını bir ovuc yuxu dərmanı söndürüb də, açıq yaralarını torpaq sarıyıbsa da, nakam ruhu hələ bu dünyadan qopub azad olmayıb, hələ nirvanaya çatıb dinclik tapmayıb. Bundan ötrü onun məsum, xəyalpərəst, şair könlü öz dünyasından sıyrılıb hamının olan dünyaya bir də qayıtmalıdır.

Bəlkə də bu gəlişində bəxt üzünə güləcək, can mülkü xaraba qalmayacaq, yer üzündə ruhuna abad bir bədən tapıb, özünə layiq dinc, rahat bir ev quracaq. Bəlkə növbəti gəlişində canından didərgin düşüb viran vücudundan perikməyəcək, bəlkə növbəti gedişi qaçış yox, uçuş olacaq.

Bəlkə də gəlib artıq, özünə ev-eşik də qurub. Bəlkə də aramızda yaşayır, hər gün yanımdan keçirik, çiyninə toxunuruq. Kim bilir...

Ancaq mən onu görsəm, əminəm, tanıyaram. Körpəcə xəyalından, qocaman qüssəsindən, bığ yeri tərləməmiş sevgisindən tanıyaram.



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN




# İqtisadi tərəqqinin əsas qüvvələri...

## Azərbaycanda “Sahibkarlar Günü”dür

Sahibkarlığın inkişafı hər bir ölkənin iqtisadi tərəqqisində xüsusi rola malikdir. Əlverişli biznes mühitin yaradılması üçün sahibkarlığın inkişafı böyük əhəmiyyət kəsb edir. Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl olaraq həyata keçirilən iqtisadi inkişaf strategiyasının tələblərindən biri məhz sahibkarlığın inkişaf etdirilməsidir. İqtisadiyyatımızın davamlı və tarazlı inkişafının təmin edilməsi, regionların inkişafının sürətləndirilməsi ölkəmizin prioritet vəzifələrindəndir. Qəbul edilmiş dövlət proqramları çərçivəsində isə bu işlər uğurla həyata keçirilməkdədir.




Təsadüfi deyil ki, bu gün siyasətimizin mühüm hissəsini sahibkarlara dövlət dəstəyinin artırılması təşkil edir. Dövlət-sahibkar münasibətləri inkişaf etdirilir, sahibkarlığın dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılır. Sahibkarların hüquqlarının müdafiəsinin işlək mexanizmləri yaradılıb, onların tətbiqi nəticəsində müdaxilə halları azalıb. Sahibkarlığın məsləhət, informasiya təminatının gücləndirilməsi və işgüzar əlaqələrinin inkişafı istiqamətində mütəmadi tədbirlər də həyata keçirilməkdədir.

### Böyük nüfuza malik sahibkarlarımız...

Azərbaycanda sahibkarlıq fəaliyyəti qədim tarixə malik olmaqla böyük inkişaf yolu keçib. 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində bu qədim fəaliyyət növü sürətli və böyük inkişaf dövrü yaşayıb. Ölkəmizin malik olduğu müxtəlif təbii sərvətlər həm xarici iş adamlarının ölkəyə gəlməsinə, həm də yerli sahibkarlığın inkişafına əvəzsiz şərait yaradıb. Azərbaycan ən qiymətli sərvətlərdən olan neft ölkəsidir. Hələ 19-cu əsrdə Azərbaycanda neft hasilatı üzrə dünyada böyük nüfuza malik sahibkarlar yetişib. Həmin sahibkarların ölkəmizin iqtisadi inkişafında, xüsusilə neft hasilatı və emalı sənayesinin inkişafında əhəmiyyətli rolu olub. Dövrünün böyük nüfuz sahibləri olan bu insanlar ölkədə binalar, məktəblər, teatrlar, xəstəxanalar tikdirib, əhalinin böyük hissəsini işlə təmin ediblər. Bu baxımdan Hacı Zeynalabdin Tağıyevin, Musa Nağıyevin, Murtuza Muxtarovun, Şəmsi Əsədullayevin, Seyid Mirbabayevin, Səlimovun, Mirzəyevin və onlarla başqalarının adları sahibkarlıqla məşğul olanlara əsl nümunə və həyat məktəbi olmalıdır.

### Azərbaycan Ticarət evləri

Son illərdə sahibkarlığın inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi, qeyri-neft sektorunda innovativ texnologiyalara əsaslanan yeni istehsal, emal və infrastruktur müəssisələrinin yaradılması, ixrac əməliyyatlarının maliyyələşdirilməsi, real sektora investisiya qoyuluşlarının sürətləndirilməsi və özəl sektorda fəaliyyət göstərən təsərrüfat subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi sahəsində mühüm addımlar atılıb. Dövlət başçısı Azərbaycan sahibkarlarına xarici ölkələrə ixrac missiyalarını genişləndirmək sahəsində də ciddi dəstək verib. Azərbaycan Ticarət evlərinin fəaliyyət göstərdiyi ölkələrin sayı sürətlə artır. Belarus, Çin, Ukrayna, Latviya, Polşa, Birləşmiş Ərəb Əmirlikləri (Dubay) və bir sıra ölkələrdə Azərbaycan Ticarət evləri fəaliyyət göstərir.

### Davamlı inkişafın açarı...

Bütün dünyada olduğu kimi, Azərbaycanda da kiçik və orta biznes subyektləri iqtisadiyyatın hərəkətverici qüvvəsi, dayanıqlı və davamlı inkişafın açarıdır. Azərbaycanda sahibkarların 99 faizdən çoxunu kiçik və orta sahibkarlıq subyektləri təşkil edir. Fəaliyyətdə olan həmin subyektlərinin 97,3 faizi mikro, 1,9 faizi kiçik və 0,8 faizi orta sahibkarlıq subyektləridir. Ölkəmizdə kiçik və orta sahibkarlıq subyektləri əsasən ticarət, kənd təsərrüfatı, tikinti, emal, logistika, sənaye, turizm, ictimai iaşə, nəqliyyat və digər sahələrdə fəaliyyət göstərirlər.

Yeri gəlmişkən, bu gün Azərbaycanda “Sahibkarlar Günü” kimi qeyd olunur. Dövlət başçısının 2016-cı il 21 aprel tarixli sərəncamına əsasən, bu gün hər il aprelin 25-də qeyd edilir. “Sahibkarlar Günü”nün qeyd edilməsi bu sahəyə göstərilən dövlət qayğısının daha bir ifadəsidir.

*Yeganə BAYRAMOVA*

# Kim olduğumuzu göstərən genetik kod!

## Dünya DNT Günüdür

Yəqin ki, hər birimiz həyatımızda ən azı bir dəfə də olsa, DNT sözünü eşitmişik. DNT müasir biologiya elminin, xüsusən də, genetika və molekulyar biologiyanın onurğa sütununu təşkil edir. Necə deyərlər, əgər biologiya elmini qədim dünya tarixi hesab etsək, şübhəsiz ki, DNT molekulu da o dövrün Roması olardı. Çünki qədim dünyada bütün yolların Romaya apardığı kimi, müasir biologiyada da bütün yollar DNT-yə aparır. Bir sözlə, DNT-siz biologiya şahsız şahmat oyununa bənzəyir. DNT molekulu 1910-cu ildən günümüzə qədər 21 Nobel mükafatının sahibini tapmasına səbəb olub.

DNT kim olduğumuzu göstərən valideynlərimizdən aldığımız bioloji genetik koddur. Bu kod cinsimiz, boyumuz, gözümüz, saçımızın rəngi və daha çox bədənimizi quran blokları təşkil edən təlimatları saxlayır. Tək bir DNT molekulunda bir-birinə bükülən “cüt sarmal” adı verilən bir cüt iplik var.

DNT-nin əsl adı “deoksiribonuklein turşusu” dur. Bədənimizdəki təxminən hər hüceyrənin eyni DNT-si var. Çoxu hüceyrə nüvəsi adlanan yerdə yaşayır, bəziləri isə mitokondriya və ya elm adamlarının “hüceyrənin gücü” adlandırdığı yerdə yaşayır.

DNT sayəsində elm adamları milyonlarla il əvvəl yaşamış canlının necə bir quruluşa malik olduğunu, xüsusiyyətlərini və həyat tərzini öyrənə bilirlər. Yaxın tarixə qədər bu sahə üzrə tədqiqat və təcrübələr aparan elm adamları canlıların genetikasının dəyişdirilməsinin mümkünsüz olduğunu iddia edirdilər. Amma artıq bu iddia tamamilə mənasızdır. Çünki hər ikisi professor olan fransalı mikrobioloq Emmanuel Şarpantye və amerikalı biokimyaçı Cennifer Dudna artıq həyat kodlarımızı, yəni, genlərimizi kəsib-biçmək, onu dəyişdirmək üçün “genetik qayçı” kəşf ediblər. Hansı ki, bu kəşf onlara 2020-ci il üçün kimya sahəsində Nobel mükafatı qazandırmışdı.

Yeri gəlmişkən, bu gün Dünya DNT Günü olaraq qeyd olunur. 2003-cü ildən etibarən Dünya DNT Günü münasibətilə keçirilən tədbirlər ABŞ-ın İnsan Genomunun araşdırılması Milli İnstitutu tərəfindən təşkil olunur.

### DNT necə işləyir?

Valideynlərimizdən miras aldığımız DNT xromosomlarda olan “gen” adlanan vahidlərdə saxlanılır. Genlərimizin yarısını analarımızdan, yarısını atalarımızdan alırıq. Bədənimizdə olan bütün genlər qrupuna “genom” deyilir.

DNT-lərimizin hamıdan fərqli olduğunu düşünürük, ancaq burada yanılmaq ehtimalımız var. Belə ki, DNT-lərimizin yüzdə 99-nu digər insanlarla, yarısını isə heyvanlar və bitkilərlə paylaşırıq.



### DNT-ni kim kəşf etmişdi?

Amerikalı genetik Ceyms Uotson DNT-nin kəşf edilməsində böyük rol oynayıb. C.Uotson ingilis molekulyar bioloq Frensis Krik və Rozalind Franklinlə birgə DNT molekullarının strukturunun öyrənilməsi istiqamətində apardıqları tədqiqatların nəticələrini 1953-cü il aprelin 25-də “Nature” jurnalında dərc edib. Məqalənin dərc olunmasından düz 50 il sonra, yəni 2003-cü il aprelin 25-də insan genlərinin deşifrə edilməsi layihəsinin sona yaxınlaşdığı elan edilib. Bildirilib ki, genomun bəzi hissələrinin əlavə analizləri başa çatmasa da, layihə üzərində əsas iş yekunlaşdırılıb.

*Yeganə BAYRAMOVA*

# Bataqlıq qızdırması...

## Malyariya ilə necə mübarizə aparaq?

Malyariya ölümcül qlobal xəstəliklərdən biridir və xüsusilə Afrikada çox yayılıb. Ağcaqanadların yaratdığı bu xəstəlik əsasən, Sahara Afrikasında üstünlük təşkil edir. Hər il dünyada təxminən 300 milyondan çox adam malyariyaya yoluxur, yarım milyona yaxın şəxs həyatını itirir. Malyariya virusu daşıyan ağcaqanad insanı dişlədikdə parazit birbaşa qana keçir və qan vasitəsilə qısa müddətdə qaraciyər toxumasına daxil olur.

Parazitlər qaraciyərin divarlarına yapışır, böyüyür və partlayıb, çoxalır. Onların çoxalma funksiyası sürətlə baş verir. Get-gedə virus eritrositlərə daxil olmağa başlayır. Əksər hallarda simptomlar özünü yoluxmadan sonra 10 gün-4 həftə ərzində büruzə verir, lakin insan halsızlıq və zəifliyi həm 8 gündən sonra, həm də 1 ildən sonra hiss edə bilər.

Bu gün Ümumdünya Malyariya ilə Mübarizə Günü kimi qeyd olunur. 2007-ci ildə Ümumdünya Səhiyyə Təşkilatının 60-cı sessiyasında bu xəstəliklə səmərəli mübarizə aparmaq barədə qərar qəbul edilib.

### Virusun məkanı - damarlar, limfalar, qaraciyər

Qədim dövrlərdə güman edilirdi ki, malyariyanın yaranmasına səbəb çirkli hava, natəmizlik, insanların heyvanlarla təmasda olmasıdır. Özü də bu xəstəliyə daha çox gənclərdə rast gəlinirdi.

Hələ eramızdan əvvəl mövcud olan bu xəstəlik haqqında ilkin məlumatlara Hippokratın əlyazmalarında rast gəlinib. Qədim Yunanıstanda, Ərəb ölkələrində, Yaponiyada insanların kütləvi ölümünə səbəb olan bu xəstəliyə Tutanxamon da yoluxub. Həmin dövrlərdə mütəxəssislər güman edirdi ki, bu, düşmənlərin hazırladıqları zəhərdir, hava vasitəsilə insanlara ötürülür. XIX əsrdə isə fransalı alim Ş.Laveran malyariyanın virus olduğunu aşkarlayıb. 1894-1899-cu illərdə isə amerikalı alim P.Menson malyariyanın ağcaqanadların dişləməsi nəticəsində yarandığını aşkarlaya bilib.

### Kimlər risk altındadır?

-İstirahətə gedənlər
-Su kənarında çox gəzməyi sevənlər
-Dağlıq ərazidə yaşayanlar
-Ağcaqanad dişləməsinə önəm verməyənlər
-İmmuniteti zəif olanlar
-Pəhriz saxlayanlar.



### Müalicə necə aparılmalıdır?

Xəstəliyin müalicəsi mümkündür. Amma həkimə vaxtında müraciət etmək lazımdır. Müalicənin müddəti malyariyanın diaqnoz olunmuş formasından, xəstənin yaşından asılıdır. Allergiyaya meyilli olan insanlarda xəstəliyin gedişatı daha ağır olur. İnsanların əksəriyyəti malyariya parazitinə yoluxduqlarını dərk edə bilmirlər, buna görə də çox vaxt gec müraciət edirlər. Ölüm halları əsasən, tropiki malyariya vaxtı baş verir. Ölkəmizdə isə daha çox üçgünlük malyariyaya rast gəlinir.

### Profilaktik tədbirlər...

Malyariyanın aktiv olduğu bölgələrdə tez-tez xəstəlik əleyhinə dərman qəbul etmək məsləhətdir. Ağcaqanad sancmalarından qorunmaq lazımdır. Evdə ağcaqanadların olmamasına nəzarət edilməlidir. Ən yaxşısı isə ağcaqanadların çoxaldığı mövsümdə bədənin açıq yerlərinə həşəratlardan qorunmaq üçün kremlər çəkilməlidir. Ağcaqanadların yumurta qoya biləcəyi yerlərdən su yığılmalarını ləğv etmək lazımdır.

### Malyariyaya qarşı ən təsirli dərman...

Malyariya zamanı xəstədə anemiya halları çoxalır. Buna görə də xəstəyə çoxlu alma və ət yeməkləri vermək lazımdır. Malyariya zamanı çoxlu göyərti, nar yemək, çuğundur şirəsi içmək orqanizmin müqavimətini artırır, xəstəliyə qarşı mübarizəni gücləndirir.

Digər mənbələrə görə, malyariya zamanı bol qatıq yemək və portağal şirəsi içmək məsləhətdir.

*Yeganə BAYRAMOVA*




# “Nar”dan Ümumdünya Kitab Gününə dəstək

Sərfəli xidmətləri ilə yanaşı, sosial layihələrə verdiyi önəmlə seçilən “Nar” gənclər arasında kitab oxuma vərdişlərinin təşviqinə yönəlmiş təşəbbüslərə dəstəyini davam etdirir. Mobil operatorun Ümumdünya Kitab və Müəlliflik Hüququ Günündə “Ədibin Evi”ndə keçirilən “Kitab necə ərsəyə gəlir?” mövzusundakı müzakirələrə dəstəyi də mütaliəyə marağın artırılması və ədəbiyyatla bağlı fəal dialoqun qurulması baxımından əhəmiyyətli olub.

23 aprel tarixində baş tutan görüşdə yazıçı Aqşin Yenisey və ədəbiyyatşünas Qismət Rüstəmov gənc yazarlarla bir araya gəlib. Aqşin Yenisey hazırda üzərində işlədiyi neft mövzusuna həsr olunan kitab barədə ətraflı məlumat verib, onun yazılma prosesi, mövzu seçimi və məqsədi haqqında gənc yazarlarla fikir mübadiləsi aparıb. Qismət Rüstəmov isə müasir ədəbiyyatın gənclərlə ünsiyyətdəki rolu və aktual tendensiyalar barədə çıxış edib.

“Nar” bu təşəbbüslə korporativ sosial məsuliyyət strategiyası çərçivəsində gənclərin maariflənməsinə, eləcə də ölkədə mütaliə mədəniyyətinin inkişafına töhfə verib. Mobil operatorun həyata keçirdiyi bütün sosial layihələr haqqında buradan məlumat əldə edə bilərsiniz.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən “Nar” son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.




# Azercell audiokitabları hər kəs üçün əlçatan edir!

Lider mobil operator “Audiokitab” layihəsi çərçivəsində ərsəyə gələn kitabları “Kitabların Səsi” adlı vahid platformada təqdim edir

Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü münasibətilə “Azercell Telekom” MMC illər ərzində ərsəyə gətirdiyi audiokitabları rəsmi veb-saytında yeni yaradılmış “Kitabların Səsi” adlı bölmədə yerləşdirib.

Platformada audioformatda hazırlanmış Nizami Gəncəvinin 100-dən çox əsəri, İmadəddin Nəsiminin qəzəlləri, “Koroğlu” dastanının 10 qolu, Qarabağdan olan yazıçıların ədəbi nümunələri, Ümummilli Lider Heydər Əliyevin sevdiyi əsərlər, eləcə də komikslər və podkastlar təqdim olunur. İstifadəçilər platformada seçdikləri kitabın üzərinə kliklədikdə avtomatik olaraq Azercell-in “YouTube” kanalında yerləşdirilmiş müvafiq məzmuna yönləndirilirlər.

2017-ci ildən etibarən həyata keçirilən “Audiokitab” layihəsi Azercell-in milli-mədəni irsimizin qorunmasına və ana dilimizdə rəqəmsal məzmunun inkişafına verdiyi töhfənin bir hissəsidir.

Səhifəyə keçid: Kitabların səsi | Məşhur tətbiqlər sərfəli abunəlik şərtlərilə


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4949
Sifariş: 845
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova